25 sentyabr 2019 №68 (1653) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında 23 ölkə təmsil olunacaq




Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 27-29 sentyabr tarixində Bakı İdman Sarayında (Neftçilər prospekti 26A, Xalça Muzeyinin yanı) VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçiriləcək.

Sərgi-yarmarkada böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyinə həsr olunub.

Sərgidə 81 yerli və 22 ölkədən 40 xarici nəşriyyat, poliqrafiya müəssisəsi, kitab evləri və s. qurumlar öz nəşrlərini təqdim edəcək və kitablarının satışını həyata keçirəcəklər. Eyni zamanda, sərgi çərçivəsində tanınmış şair və yazıçıların, elm adamlarının iştirakı ilə çoxsaylı kitab təqdimatları, imza günləri və s. tədbirlər keçiriləcək.

Ziyarətçilər üçün sərgiyə giriş sərbəst olacaq.

## Şəhər və rayonlarda vətəndaşların növbəti qəbulları keçirilib

Müntəzəm olaraq şəhər və rayonlarda əhali ilə keçirilən görüşlər bir çox məsələlərin operativ şəkildə həll olunması baxımından yaxşı təcrübədir.

Mədəniyyət naziri Əbülfəs Qarayev bu sözləri sentyabrın 20-də Naftalan şəhərində vətəndaşların qəbulundan sonra mətbuata açıqlamasında bildirib.

səh. 4

## Tarixi-mədəni abidələrimiz maltalı qonaqda böyük təəssürat doğurub

Ölkəmizdə səfərdə olan Maltanın UNESCO üzrə Milli Komissiyasının sədri Raymond Bondini bir sıra görüşlər keçirib.

Reymond Bondin ölkəmizin zəngin mədəni irsinin onda dərin təəssürat oyatdığını bildirərək səfər müddətində bir sıra muzeylərdə, tarixi məkanlarda olduğunu deyib. Bildirib ki, Çıraqqala, Nardaran, Mərdəkan və Ramana qalaları dünya mədəni irsi baxımından unikal abidələrdir.

səh. 3

## Berlində Nəsiminin 650 illiyi münasibətilə konsert

Sentyabrın 23-də İmadəddin Nəsiminin 650 illiyi və UNESCO üzrə Azərbaycan Milli Komissiyasının 25 illiyi münasibətilə Berlin şəhərində konsert keçirilib.

Konserti giriş sözü ilə Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov açaraq böyük şair İmadəddin Nəsiminin həyat və yaradıcılığından bəhs edib, 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunduğunu deyib. Bildirilib ki, bu il həmçinin UNESCO üzrə Azərbaycan Milli Komissiyasının yaradılmasının 25 illiyi qeyd edilir.

Səfir tamaşaçılara "Qarabağ" muğam qrupu haqqında məlumat verib, muğamın Azərbaycan musiqi mədəniyyətində əhəmiyyətli yer tutduğunu vurğulayıb.

davamı səh. 2-də



## "Naxışlı Azərbaycan" sərgisi

Sentyabrın 24-də Azərbaycan Rəssamlar İttifaqının V.Səmədova adına sərgi salonunda rəssam Əli Əliyevin "Naxışlı Azərbaycan" adlı sərgisinin açılışı oldu.

Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov tədbiri giriş sözü ilə açaraq sərgiyə olan böyük maraqdan danışdı: "Bu, Əli Əliyevin ikinci böyük sərgisidir. O öz əsərlərində Azərbaycan təbiətini çox gözəl şəkildə əks etdirməyi bacarır. Ümidvaram ki, belə sərgilər davamlı olacaq".

davamı səh. 2-də

# Bakı payızının ilıq notları

### XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının konsert proqramları davam edir




Bakının payız günlərinə xüsusi bir ovqat qatan musiqi bayramı – XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində rəngarəng konsert proqramları davam edir. Festivalın daha bir musiqi axşamı sentyabrın 21-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirildi. Konsertin elə adından diqqətçəkən məqam rusiyalı dirijorun Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrini idarə etməsi idi.

V.V.Andreyev adına Rusiya Dövlət Akademik Orkestrinin bədii rəhbəri, Rusiyanın Xalq artisti, N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Dövlət Konservatoriyasının professoru Dmitri Xoxlovun dirijorluq etdiyi konsert proqramı dahi Üzeyir Hacıbəylinin "Koroğlu" operasının "Uvertüra"sı ilə açıldı. Ardınca xalq musiqisi üslubunda yazan rus bəstəkar Modest Musorqskinin "Sərgidən şəkillər" məcmuəsindən "Köhnə qala" səsləndirildi.

İtaliyalı bəstəkar və dirijor Vittorio Montinin hamımıza tanış olan "Çardaş" əsərini beynəlxalq müsabiqə laureatı Kamil Hüseynzadənin marinba alətində səsləndirməsi də alqışlarla qarşılandı. Pyotr Çaykovskinin "İlin fəsilləri" məcmuəsindən "Payız nəğməsi"nin ardınca yer solo ifaya verildi. Bu dəfə rumın skripkaçı-bəstəkarı Qriqoraş Dinikunun "Mart yallısı"nı respublika və beynəlxalq müsabiqələr laureatı Mədinə Şahgəldiyeva kamançada ifa etdi.

Yüksək əhvala köklənən proqram P.Çaykovskinin "Şelkunçik" baletindən "Vals"la davam etdi. Proqramda görkəmli Azərbaycan bəstəkarları Qara Qarayevin "Yeddi gözəl" baletindən "Yürüş" və "Vals", Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletindən "Türk qızlarının rəqsi" gecənin musiqi palitrasına əlavə rəng qatdı.

Balet parçalarının ardınca Fikrət Əmirovun "Sevil" operasından "Balaşın ariyası" Əməkdar artist Ramil Qasımovun ifasında maraqla dinlənildi. Qara Qarayev yaradıcılığından "İki rəqs"in ardınca Müslüm Maqomayevin məşhur "Azərbaycan" mahnısı Əməkdar artist İlham Nəzərovun ifasında ayrı bir şövqlə səsləndi.

Sentyabrın 24-də Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsi festivalın daha bir qonağı – Çinin "Silk Road" Kunmin Filarmonik Orkestrinin ixtiyarına verilmişdi. Əməkdar artist Əyyub Quliyevin dirijorluq etdiyi konsertin solistləri Rusiyanın Xalq artisti, violonçelçalan Sergey Roldugin, pianoçu Miroslav Kultişev və truba ifaçısı İsrafil Rəsulov idi. Proqramda L.Himinq, X.Penq, D.Şostakoviç, Y.Haydn, R.Ştrausun əsərləri səsləndi.

Üzeyir festivalının Bakı payızına sənət zövqü gətirən konsert proqramları sentyabrın 30-dək davam edəcək.

## Ölkəmizdə Rusiya filmləri həftəsi

Sentyabrın 23-də Nizami Kino Mərkəzində "Azərbaycanda Rusiya filmləri həftəsi"nin açılış mərasimi keçirildi. Tədbir Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Rusiyanın Mədəniyyət Nazirliyi, Rusiyanın "Kinofest" Prodüser Mərkəzi və "YARAT" Müasir İncəsənət Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşir.




Mərasimdə çıxış edən C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev Bakıda Rusiya filmləri həftəsinin bu il 5-ci dəfə keçirildiyini söylədi. Qeyd etdi ki, layihə iki ölkənin mədəni həyatında mühüm hadisədir və xalqlarımız arasında dostluq münasibətlərinin parlaq nümunəsidir: "Ənənəvi olaraq payız fəslinin romantik abhavasında təqdim edilən rus filmləri tamaşaçılara xoş əhval bəxş edir. Azərbaycan tamaşaçısı hər dəfə Rusiya kinematoqraflarının əsərlərini izləyərək bu ölkənin kino sənayesindəki inkişaf və yeniliklərlə tanış olur".

Cəmil Quliyev bildirdi ki, ən mürəkkəb zamanlarda belə Rusiya kinosu çətinlikləri aşmağı bacarıb və bu gün dünyaya bir-birindən maraqlı kino nümunələri bəxş etməkdədir. Bakıda təqdim ediləcək filmlərə baxan tamaşaçılar da buna əmin olacaqlar.

davamı səh. 2-də

## Məşhur musiqiçilər nəslinin görkəmli nümayəndələri

Sentyabrın 24-də Azərbaycan Bəstəkarlar İttifaqında görkəmli bəstəkar Soltan Hacıbəyovun (1919-1974) 100 və İsmayıl Hacıbəyovun (1949-2006) 70 illiyinə həsr olunan elmi konfrans keçirildi. Tədbir XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində təşkil olunmuşdu.

Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə konfransı açaraq Azərbaycan simfonik musiqisinin inkişafında xidmətləri olan Soltan Hacıbəyovun yaradıcılığından danışdı. Qeyd etdi ki, bəstəkar simfoniya, simfonik lövhə və süitalar, həmçinin opera və balet, dram tamaşalarına musiqi, mahnı və romanslar yazaraq Azərbaycanın mədəniyyət xəzinəsinə töhfələr verib. Onun "Gülşən" baleti, "İsgəndər və çoban" uşaq operası, "Qızılgül" musiqili komediyası, "Karvan" simfonik lövhəsi, habelə simfonik, kamera və xalq çalğı alətləri orkestrləri üçün müxtəlif əsərləri musiqi salnaməmizdə özünəməxsus yer tutur. Soltan Hacıbəyov 1969-1974-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasının rektoru olub.

davamı səh. 2-də

## Filippdən "Polonez" və ... "Per Günt"

XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı paytaxt sakinlərini və Bakının qonaqlarını klassik musiqi ifaçıları ilə görüşdürməkdə davam edir.

Belə görüşlərdən biri sentyabrın 20-də Beynəlxalq Muğam Mərkəzində baş tutdu. Həmin axşam məşhur rusiyalı pianoçu, beynəlxalq müsabiqələr laureatı Filipp Kopaçevskinin iştirakı ilə konsert proqramı təqdim olundu.

İndiyədək səkkiz nüfuzlu beynəlxalq sənət yarışmasından qalib ayrılmış gənc pianoçu bu konsertdə dünya fortepiano musiqisinin şedevrlərini ifa etdi.

Frederik Şopen, İohan Brams və Edvard Qriqin seçilmiş pyes və valslarının, noktürn, ballada və süitanın mükəmməl səslənişi ifaçının öz seçdiyi əsərlərə münasibətinin ifadəsi ilə fərqləndi.

davamı səh. 3-də

## İtaliyalı azərbaycanlı

### Aleksandr Hacıyevin Bakıda ilk konserti

Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının qonaqlarından biri də İtaliyadan gəlmiş tanınmış pianoçu Aleksandr Hacıyev idi. İtaliyalı olsa da, əslində, soydaşımızdır. Bunu onun soyadından da təxmin etmişdik, Bakıda isə öz dilindən eşitdik.

Sentyabrın 22-də Beynəlxalq Muğam Mərkəzində keçirilən solo konsertdən öncə ifaçıdan qısa müsahibə almaq imkanımız oldu.

davamı səh. 4-də

Ağdam Dram Teatrında "Mən ölməyəcəyəm"



səh. 4

Ölkəmiz Anqolada sülh mədəniyyəti naminə Pan-Afrika Forumunda təmsil olunub

səh. 3



Marionet teatrının "Leyli və Məcnun"u Fransada

səh. 8

№68 (1653)
25 sentyabr 2019
www.medeniyyet.az

# Akademik Nizami Cəfərov “Şöhrət” ordeni ilə təltif olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Nizami Qulu oğlu Cəfərovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Əməkdar elm xadimi, ədəbiyyatşünas, dilçi, türkoloq, filologiya elmləri doktoru, akademik Nizami Cəfərov ölkənin ictimai-siyasi həyatında fəal iştirakına və elmin inkişafında xidmətlərinə görə təltif edilib.

Sentyabrın 21-də akademik Nizami Cəfərovun 60 yaşı tamam olub.

# Elmin İnkişafı Fonduna yeni icraçı direktor təyin edilib

Dövlət başçısının 20 sentyabrda imzaladığı digər sərəncamla Mehriban Natiq qızı İmanova Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru təyin edilib.

Mehriban İmanova 1977-ci ildə anadan olub. Riyaziyyat üzrə fəlsəfə doktorudur. Bu təyinatadək Bakı Dövlət Universiteti Mexanika-riyaziyyat fakültəsinin Hesablama riyaziyyatı kafedrasının dosenti vəzifəsində çalışıb.

# Berlində Nəsiminin 650 illiyi münasibətilə konsert

*əvvəli səh. 1-də*



Muğam qrupunun adını daşıdığı Qarabağın – Azərbaycanın tarixi torpaqlarının Ermənistan tərəfindən işğal olunduğu diqqətə çatdırılıb.

Sonra Xalq artisti Mənsum İbrahimovun rəhbərliyi ilə “Qarabağ” muğam qrupunun Nəsiminin qəzəllərindən ibarət konsert proqramı təqdim olunub. Konsertdə xanəndələr Mənsum İbrahimov və Sədəf Budaqovanı Elçin Həşimov (tar), Elnur Əhmədov (kamança) və Kamran Kərimov (nağara) müşayiət ediblər.

Tədbirdə Almaniyanın ictimai, mədəni dairələrinin, diplomatik korpusun və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində Azərbaycan mədəniyyətinə və incəsənətinə dair əyani materiallar nümayiş olunub və iştirakçılara paylanılıb.

# Üzeyir festivalında caz axşamı

Sentyabrın 23-də tanınmış amerikalı caz ifaçısı Mişel Uoker Beynəlxalq Muğam Mərkəzində konsert proqramı ilə çıxış etdi. Bakının caz həvəskarları məşhur ifaçının yaradıcılığı ilə tanış olsalar da, bu dəfə onu canlı olaraq dinləmək imkanı əldə etmişdilər.




Konsertin ilk notlarından pozitiv əhval bəxş edən ifaçı musiqi akkordlarına uyğun olaraq rəqsi və jestləri ilə zalın alqışlarını qazana bildi. Tamaşaçılarla birgə duetlər də konsertin yaddaqalan məqamlarından oldu. Proqrama uyğun olaraq ifaçı bir-birindən rəngarəng hit mahnılarını təqdim etməklə yanaşı, dünya caz nümunələrinə də müraciət edirdi.

Mişel Uoker xüsusi səs tembri ilə hər kəsi heyrətləndirən caz vokalçısıdır. İncə ifa tərzi ilə seçilən vokalçı klassik melodik hərəkətləri və müasir stilə malik yanaşmaları ilə diqqəti cəlb edir. Buna görə də onun ifaları həm tənqidçilər, həm də ictimaiyyət tərəfindən zövqlü musiqi kimi qəbul edilir. 2000-ci ildən fəaliyyətə başlayan ifaçının ilk albomu – “Slown down” ABŞ-da ilin ən yaxşı debüt albomu və ən yaxşı müstəqil vokal caz albomu kimi mükafatlara layiq görülüb.

**LALƏ**

# Rodion Şedrinin məşhur əsəri Bakıda ilk dəfə səslənib

Azərbaycan Dövlət Akademik Filarmoniyasında sentyabrın 23-də təqdim edilən Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin konserti də Üzeyir Hacıbəyli festivalının yaddaqalan musiqi axşamlarından biri oldu.



Orkestri Xalq artisti, dirijor Fəxrəddin Kərimov idarə edirdi. Gecədə Xalq artisti, pianoçu Murad Adıgözəlzadə Azər Dadaşovun “Fortepiano və orkestr üçün konsert”ini, Rusiyanın tanınmış violin ifaçısı Alyona Bayeva isə dünya şöhrətli bəstəkar, SSRİ Xalq artisti Rodion Şedrinin məşhur əsərini – “Concerto Cantabile” violin və simli orkestr üçün konsertini ifa etdi. “Concerto Cantabile” Bakıda ilk dəfə səslənirdi.

Bundan başqa, konsertin proqramında K.Yenkinsin simli orkestr üçün “Palladio” və P.Hindemitin simli kvartet üçün “Minimax” əsəri yer almışdı.

# Ölkəmizdə Rusiya filmləri həftəsi

*əvvəli səh. 1-də*

Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov çıxışı zamanı Azərbaycan tamaşaçılarının Rusiya filmlərinə olan böyük marağından söz açdı: “Ötən il də Rusiya filmləri həftəsini açmaq mənə nəsib olmuşdu. Hər dəfə Azərbaycan tamaşaçılarının Rusiya filmlərinə olan marağının şahidi oluram. Hazırda Rusiyada hər həftə azı iki yeni film ekranlara çıxır. Mən çox arzulayıram ki, Azərbaycan tamaşaçısı da bu filmləri görsün. Bu dəfə nümayiş olunacaq filmlər Rusiya kinematoqraflarının ən son yaradıcılıq məhsulları - 2018 və 2019-cu illərdə istehsal olunmuş filmlərdir. İnanıram ki, filmləri bəyənəcəksiniz”.

“Kinofest” Prodüser Mərkəzinin direktoru Sergey Bragin isə layihənin ildən-ilə genişləndiyini bildirdi: “Biz bu dəfə on bədii filmlə Azərbaycan tamaşaçısının görüşünə gəlmişik. Bu dəfə macəra, komediya, dram, müharibə, melodram və s. janrlarda müasir rus kinosunun nümunələri tamaşaçılara təqdim olunacaq. Əminəm ki, Rusiya filmləri həftəsi ölkələrimiz arasında mədəni əlaqələrin güclənməsinə öz töhfəsini verəcək. Yaxın zamanlarda Rusiyada Azərbaycan filmləri həftəsinin şahidi olmaq imkanı qazanacağıq”.

Daha sonra kino bayramında iştirak etmək üçün ölkəmizdə səfərdə olan rusiyalı rejissor və prodüserlər ürək sözlərini bölüşdülər. “Tanklar” filminin rejissoru Kim Drujin, “Damdabaca” filminin ssenari müəllifi və aktyoru Dmitri Bedarev, “Van Qoqlar” filminin rejissoru Sergey Livnev, “Əziz ata” filminin prodüseri Georgi Malkov ölkəmizdə səmimi qarşılandıqları üçün təşəkkürlərini bildirdilər. Azərbaycan tamaşaçılarına son illərin ən gözəl film nümunələrinin təqdim ediləcəyi vurğulandı.




Daha sonra Anar Abbasovun “Döyüş” filmi nümayiş olundu. Bir xoreoqrafın həyatından bəhs edən filmdə böyük karyeraya sahib olan rəqqasın komandası bütün müsabiqə və tədbirlərdə qalibiyyət qazanır. Onun həyatı və gələcəyi bu sənətlə bağlıdır. Bir gün bədbəxt hadisə nəticəsində eşitmə qabiliyyətini itirirsə də, sənətinə sonsuz sevgisi yenidən səhnəyə dönməsinə şərait yaradır. Filmin rejissoru və ssenari müəllifi həmyerlimiz, Rusiya Dövlət Kinematoqrafiya İnstitutunun məzunu, bir çox beynəlxalq kinofestivalların qalibi Anar Abbasovdur.

Gənc rejissor fikirlərini bizimlə bölüşərək Rusiya filmləri həftəsində müəllifi olduğu ekran əsərinin nümayişinə görə fəxr etdiyini bildirdi: “Rusiyada təhsil alana qədər Bakıda məşhur “Crazy” rəqs qrupunda çıxış edirdim. Bu qrup təkcə Azərbaycanda deyil, eləcə də Rusiya, Ukrayna, Türkiyə və digər ölkələrdə populyar idi. Bu gün təqdim ediləcək “Döyüş” filminin bəstəkarı vaxtilə həmin qrupa rəhbərlik edən Elman Rəhimovdur. Film Rusiyada böyük maraqla qarşılanmışdı. Rusiyada kino sənayesinə daxil olub uğur qazanmaq çətindir. Bu, böyük peşəkarlıq və dəstək tələb edir. Biz çox çalışırıq ki, uğur qazanaq. Məsələn, elə bu gün təqdim olunan “Döyüş” filmi bu il lentə alınsa da, Moskvada VIII “Biz yaşayacağıq” kinofestivalında Qran pri qazanıb”.

Qarşıdakı planlarından söz açan rejissor Azərbaycan haqqında həm bədii, həm də sənədli filmlər çəkmək istədiyini bildirdi: “Bu filmləri müxtəlif ölkələrdə nümayiş etdirmək ən böyük arzularımdandır. Məsələn, çox sevilən “Qurban” adlı filmim Azərbaycan xalqının adət-ənənələrindən bəhs edir və bu film çoxsaylı beynəlxalq mükafatlara layiq görülüb.

“Van Qoqlar” filminin rejissoru Sergey Livnev müsahibəsi zamanı diqqətə çatdırdı ki, sonuncu dəfə Bakıya gəlişi 90-cı illərin ortalarına təsadüf edir: “Bu təklif və Bakıya gəliş ürəyimcə oldu. Şəhəri yenidən gəzdim, köhnə xatirələri yada saldım. Əlbəttə ki, şəhər çox dəyişib, xatirələrsə əbədidir. Film həftəsində nümayiş olunacaq kinolentimin çəkilişləri Latviya və İsraildə aparılıb. Filmdə rusiyalı aktyorlar rol alıb. Bu film həyatımda böyük önəm kəsb edir. Çünki 20 illik fasilədən sonra yenidən rejissorluğa qayıtdım. İnanıram ki, tamaşaçılar da filmi bəyənəcəklər”.

Qeyd edək ki, Rusiya filmləri həftəsi sentyabrın 29-dək davam edəcək. Ayın 24-də Nizami Kino Mərkəzində Kim Drujinin “Tanklar”, 25-də Dmitri Bedarevin “Damdabaca” filmləri nümayiş olunub.

Sentyabrın 26-da (saat 20.00) Mixail Rasxodnikovun “Əziz ata”, ayın 27-də (14.00) Yelena Xazanovanın “Məşuqələr”, 29-da (20.00) Anna Parmasın “Gəl boşanaq” bədii filmləri və s. təqdim ediləcək.

Həmçinin “YARAT” Müasir İncəsənət Mərkəzində sentyabrın 24-də “Van Qoqlar” filmi nümayiş olunub. Ayın 27-də burada “Annanın müharibəsi”, 28-də “Aleksandr Xristoforovanın əbədi həyatı” filmləri təqdim ediləcək. Seanslar saat 19.00-da başlayır, giriş sərbəstdir.

**L.AZƏRİ**

# Məşhur musiqiçilər nəslinin görkəmli nümayəndələri

## Soltan və İsmayıl Hacıbəyovlara həsr olunmuş elmi konfrans

*əvvəli səh. 1-də*

Bəstəkarlar İttifaqının sədri bildirdi ki, Soltan Hacıbəyovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq sənətkarın yubileyi ilə bağlı bu il ölkəmizdə silsilə tədbirlər keçirilir.

Firəngiz Əlizadə daha sonra bəstəkarın davamçısı - oğlu İsmayıl Hacıbəyovun yaradıcılığından söz açdı. Bildirdi ki, Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq üzrə Qara Qarayevin sinfində təhsil alan İ.Hacıbəyov 1972-ci ildən ömrünün sonuna kimi bu təhsil ocağının Bəstəkarlıq kafedrasında dərs deyib. İstedadlı sənətkar 57 illik ömründə maraqlı əsərlər yadigar qoyub.

Əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Adilə Yusifova “Soltan Hacıbəyov yaradıcılığının naməlum səhifələri” mövzusunda çıxış etdi. Bildirdi ki, S.Hacıbəyov Azərbaycan musiqi mədəniyyəti tarixinə özünəməxsus yaradıcılığı olan bəstəkar, pedaqoq kimi daxil olub. Yaradıcılığı saflığı və şairanəliyi ilə fərqlənir. Musiqidə peyzaj yaratmağın gözəl ustası kimi tanınıb. O həm də yaradıcılığında Üzeyir bəyin ənənələrinə sadiq qalıb. Bəstəkar uşaqları da yaddan çıxarmayıb. Onlar üçün də rəngarəng mövzularda əsərlər yazıb.



Tədbirdə daha sonra sənətşünaslıq üzrə fəlsəfə doktoru Natella İsgəndərovanın “Müasir Azərbaycan musiqisində İsmayıl Hacıbəyovun tarixi əhəmiyyəti”, Əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ülviyyə İmanovanın “İsmayıl Hacıbəyov Azərbaycan bəstəkarlıq məktəbinin parlaq nümayəndəsi kimi” mövzularında məruzələri dinlənildi.

Çıxışlardan sonra bədii hissəyə keçildi. S.Hacıbəyovun “Skertso”, “Uvertüra”, İ.Hacıbəyovun “Piano üçün Paqanini mövzusuna variasiyalar” əsərləri səsləndirildi. Bütün ifalar alqışlarla qarşılandı.

**S.FƏRƏCOV**

# “Naxışlı Azərbaycan” sərgisi

*əvvəli səh. 1-də*

Rəssamlar İttifaqının məsul katibi, Əməkdar incəsənət xadimi Rafiq Kərimov da müəllifi sərgi münasibətilə təbrik etdi, ona yeni yaradıcılıq uğurları arzuladı.

Əli Əliyev tədbir iştirakçılarını salamlayaraq bütün gələn qonaqlara öz minnətdarlığını bildirdi.

Sonra qonaqlar sərgi ilə yaxından tanış oldular. Sərgidə rəssamın rəngkarlıq və qrafika üslubunda 90-a qədər əsəri nümayiş etdirilir.

Əli Əliyev 1960-cı ildə Qərbi Azərbaycanda (Basarkeçər rayonu) anadan olub. 1977-ci ildə Ə.Əzimzadə adına Rəssamlıq məktəbini, 1989-cu ildə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rəssamlıq fakültəsini bitirib. Yaradıcı işləri əsasən natürmort-mənzərə janrında iriölçülü kompozisiyalardır. Bu kompozisiyalar əsasən milli məişət üslubunda, etnoqrafik səpkidə, real və özünəməxsus mövzusundadır. Rəssam, eyni zamanda qrafika, qrafik dizayn, illüstrasiya, kitab-jurnal tərtibatı janrlarında, eləcə də müxtəlif monumental dizayn və tərtibat sahələrində çalışır.





**NURƏDDİN**

# Fərhad Bədəlbəyli münsiflər heyətinin üzvüdür

Sentyabrın 23-də Moskva Dövlət Konservatoriyasında IV “Piano & Voice” vokal-fortepiano duetlərinin Beynəlxalq müsabiqəsi işə başlayıb. Müsabiqənin münsiflər heyətində Bakı Musiqi Akademiyasının rektoru, SSRİ Xalq artisti, professor Fərhad Bədəlbəyli də təmsil olunur.

“Piano & Voice” müsabiqəsi digər musiqi yarışmalarından tam fərqlidir. XX əsrdə vokal-fortepiano dueti janrı çox sürətli və parlaq inkişaf mərhələsi yaşamışdı. Məşhur vokalçılarla pianoçuların dueti minlərlə insanı ən böyük konsert salonlarına toplayırdı. Lakin əsrin sonuna yaxın bir sıra səbəblər üzündən bu janr unudulmağa başladı. 2012-ci ildə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının təsis etdiyi açıq müsabiqə gənc musiqiçiləri uzunmüddətli yaradıcılıq birliyi qurmağa həvəsləndirmək məqsədi daşıyır. Müsabiqənin şərtlərinə görə, hər iki ifaçının yaşı 30-dan çox olmamalı, onlar həm populyar, həm də nadir ifa olunan kamera musiqisi nümunələrinə müraciət etməlidirlər.

Görkəmli pianoçu-pedaqoq, Moskva Konservatoriyasının prorektoru, professor Aleksandr Bonduryanskinin sədrlik etdiyi münsiflər heyətində Fərhad Bədəlbəyli ilə yanaşı Ziqrida Kirgere (Latviya), Sergey Leyferkus (Rusiya-Böyük Britaniya), Hartmut Höll (Almaniya), Qalina Brıkina, İrina Osipova və Pyotr Skusniçenko (Rusiya) da yer alıb.

Müsabiqənin bağlanışı və laureatların konserti sentyabrın 27-də keçiriləcək.

**GÜLCAHAN**

# Çin Xalq Respublikasının nümayəndə heyəti Milli Xalça Muzeyində

Ölkəmizdə səfərdə olan Çin Xalq Respublikası parlamentinin – Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 21-də Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub.

Muzeylə tanışlıq zamanı Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev və muzeyin direktoru Şirin Məlikova qonaqlara ölkəmizdə qədim xalçaçılıq ənənələri haqqında ətraflı məlumat veriblər.

Xovlu və xovsuz xalçalar, xalça məmulatları, xüsusilə məfrəş və çul, dəvəli şəddə qonaqların böyük marağına səbəb olub.



Ekspozisiya ilə tanış olarkən qonaqlar canlı olaraq toxuculuq prosesini izləyib, toxucularla söhbət ediblər.

Muzeylə tanışlıqdan sonra Li Canşu muzeyin xatirə kitabında öz təəssüratlarını qeyd edib.

Fəxri qonağa Azərbaycan Milli Xalça Muzeyinin 50 illik fəaliyyətinə həsr olunmuş kitab və xalça hədiyyə edilib. Xalça muzeyin Ənənəvi texnologiya şöbəsində toxunub. Özündə xovlu və xovsuz texnikalarını birləşdirən nümunədə dəvə karvanı əks olunub. Bu da İpək Yolu mövzusunu əks etdirir.

Li Canşu təşəkkürünü bildirərək muzeylə tanışlıqdan çox məmnun olduğunu deyib. Çin Xalq Respublikası nümayəndə heyətinin başçısı milli irsin qorunması, zəngin kolleksiyaların toplanması, qədim xalça sənətinin bu gün də yaşadılması və gələcək nəsillərə çatdırılması işinin Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biri olmasını məmnunluqla qeyd edib. O, gələcəkdə iki ölkənin xalça və tikmə sənətkarları arasında təcrübə mübadiləsinin aparılması və ustad dərslərinin keçirilməsini təklif edib, mədəniyyətlərimizin təbliği sahəsində qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini bildirib.

# Tarixi-mədəni abidələrimiz maltalı qonaqda böyük təəssürat doğurub

Ölkəmizdə səfərdə olan Maltanın UNESCO üzrə Milli Komissiyasının sədri Raymond Bondini bir sıra görüşlər keçirib.

Sentyabrın 23-də Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva Malta Respublikasının UNESCO üzrə Milli Komissiyasının sədri Reymond Bondin ilə görüşüb.

Nazir müavini qonağı salamlayaraq Maltanın Respublika Günü münasibətilə təbrik edib, Azərbaycan-Malta münasibətləri barədə danışıb və bu əlaqələrin son illərdə dərinləşməsindən məmnun olduğunu deyib. Sevda Məmmədəliyeva, ölkəmizin digər sahələrdə olduğu kimi, mədəni irsin qorunması, bərpası, təbliği və UNESCO çərçivəsində əməkdaşlıq sahəsində də Malta hökuməti ilə qarşılıqlı əlaqələrin qurulmasında maraqlı olduğunu qeyd edib.

Görüş zamanı Reymond Bondin ölkəmizin zəngin mədəni irsinin onda dərin təəssürat oyatdığını bildirərək səfər müddətində bir sıra muzeylərdə, tarixi məkanlarda olduğunu deyib. Bildirib ki, Çıraqqala, Nardaran, Mərdəkan və Ramana qalaları dünya mədəni irsi baxımından unikal abidələrdir. Çıraqqalanın unikallığı qalanın böyük bir müdafiə səddinin tərkib hissəsi olması və təbii landşaftının antropogen təsirlərinə az məruz qalmasıdır. Reymond Bondin bu qalaların kompleks halda UNESCO-nun Dünya irs siyahısına salınmasının vacibliyini qeyd edib. Qonaq həmçinin Abşeron yarımadasında yerləşən



"araba yolları"na bənzər abidələrin Maltada da olduğunu qeyd edərək bu abidələrin dünyaya tanıdılması və UNESCO siyahısına daxil edilməsi üçün əməkdaşlığın qurulmasının vacibliyini vurğulayıb.

***

Sentyabrın 20-də qonaq Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində olub.

Dövlət xidmətinin rəisi Zakir Sultanov ölkəmizdə mədəni irsin, tarixi abidələrin qorunması, bərpası və təbliği sahəsində görülən işlərdən danışıb. Ölkəmizin bu istiqamətdə beynəlxalq təşkilatlarla, xüsusilə UNESCO ilə sıx əməkdaşlıq etdiyi vurğulanıb. Z.Sultanov həyata keçirilən layihələrdən bəhs edərək hazırda Azərbaycanın ən qədim tarixi abidələrindən olan Çıraqqalada bərpa-konservasiya işlərinin aparıldığını, Mərdəkan qalasında da yaxın vaxtlarda bərpa işlərinin başlanacağını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

***

Sentyabrın 23-də "Azərbərpa" Elmi Tədqiqat Layihə İnstitutunda Maltanın UNESCO üzrə Milli Komissiyasının sədri Raymond Bondin ilə görüş keçirilib.

İnstitutun direktoru Telman Kərimli tarix və mədəniyyət abidələrində aparılan bərpa və konservasiya işləri ilə bağlı qonağa geniş məlumat verib.

Tədbirdə Çıraqqala abidəsinin bərpa və konservasiya layihəsi ilə bağlı təqdimat nümayiş olunub, layihə ilə bağlı müzakirələr aparılıb, gələcəkdə hər iki dövlətin mütəxəssisləri arasında təcrübə mübadiləsinin aparılmasının zəruriliyi qeyd olunub.

# Sülh mədəniyyəti naminə

## Ölkəmiz Anqolada forumda təmsil olunub




UNESCO və Afrika Birliyinin təşkilatçılığı ilə 18-22 sentyabr tarixində Anqolanın paytaxtı Luanda şəhərində sülh mədəniyyəti naminə Pan-Afrika Forumu keçirilib. Beynəlxalq Sülh Günü (21 sentyabr) çərçivəsində təşkil olunan tədbirdə ölkəmiz də təmsil olunub.

Forumun açılışında Anqolanın Prezidenti Joao Manuel Goncalves Lourenco, UNESCO-nun baş direktoru Odre Azule, Mali, Namibiya, Konqo respublikalarının prezidentləri çıxış ediblər. Nobel sülh mükafatı laureatı Denis Mukvege və digər ölkələrdən yüksək səviyyəli rəsmilər müxtəlif sessiyalarda öz fikirlərini səsləndiriblər.

Forum çərçivəsində Azərbaycan və UNESCO-nun birgə təşkilatçılığı ilə "Bakı Prosesi" və onun qlobal proseslərdə roluna həsr olunan xüsusi sessiya keçirilib. Sessiyanın moderatoru, Mədəniyyət Nazirliyinin Aparatı rəhbərinin müavini – Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə "Bakı Prosesi"nin tarixi, əhəmiyyəti və Afrikanın bu qlobal hərəkatda rolu barədə çıxış edib. Sonra "Bakı Prosesi"nə həsr olunan film nümayiş etdirilib.

Sessiyanın əsas çıxışçılarından olan Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi, səfir Anar Kərimov ölkəmizin Afrika ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda əməkdaşlığı, beynəlxalq qurumların xətti ilə bu qitənin ölkələrinə Azərbaycan tərəfindən göstərilən yardımlar barədə danışıb.

Hələ sovet dövründən Afrika dövlətləri ilə təhsil sahəsində əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran səfir qeyd edib ki, dövlət başçısı İlham Əliyevin göstərişi ilə Afrika ölkələrindən olan gənclərin ölkəmizdə təhsil alması üçün təqaüd proqramı təsis edilib.

Sessiyada, həmçinin "Bakı Prosesi" üzrə beynəlxalq işçi qrupunun akademik məsləhətçisi, Böyük Britaniyanın Koventri Universitetinin Etimad, Sülh və Sosial Münasibətlər Mərkəzinin icraçı direktoru, professor Mayk Hardi çıxış edərək Azərbaycanın bu təşəbbüsünün beynəlxalq əhəmiyyəti, dünyada sülh və dialoqun qurulması və hazırkı çətinliklərin təhlili üçün müstəsna platforma olduğunu vurğulayıb.

UNESCO rəsmisi Huq Nqanda isə təşkilatın "Bakı Prosesi" və Dünya Mədəniyyətlərarası Dialoq Forumunda əsas tərəfdaş olduğunu və növbəti illərdə Afrikanın bu prosesə daha fəal cəlb olunması üçün addımlar atılacağını diqqətə çatdırıb.

Yekunda V.Eyvazzadə Pan-Afrika Forumunda iştirakın əsas məqsədinin Luanda Forumu ilə "Bakı Prosesi" arasında bağlılığı artırmaq və Afrika ölkələrinin Bakıda keçirilən tədbirlərdə fəal iştiraka təşviq etmək olduğunu bildirib.

Forum çərçivəsində keçirilən Tərəfdaşlar sessiyasında səfir A.Kərimov Azərbaycanın Afrika ölkələri və təşkilatları ilə əməkdaşlığının perspektivlərindən bəhs edib.

# Keşikçidağda sazlı-sözlü "Avropa irs günü"

19-20 sentyabr tarixində Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən qoruqlarda "Avropa irs günləri" layihəsinə həsr olunmuş tədbirlər keçirilib.

Növbəti tədbir Ağstafa rayonunda yerləşən "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunda təşkil olunub. Tədbirə Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Vüqar Qədirov, mədəniyyət işçiləri də qatılıb.

Saz-sözlü tədbirin iştirakçılarına Xalq şairi Səməd Vurğunun Keşikçidağla bağlı "Rahibə qız və çoban" adlı rəvayətini aşığın dilindən dinləyib, musiqi nömrələri və milli geyimli rəqqaslar tərəfindən müxtəlif rəqsləri maraqla izləyiblər. Ərazidə at yarışı təşkil edilib, milli mətbəximizin təamlarından olan göy qutabı və samovar çayı iştirakçılara təqdim edilib. Qoruq ərazisindən tapılmış maddi mədəniyyət nümunələrindən ibarət pavilyon qurulub, buklet və flayerlər tədbir iştirakçılarına paylanılıb.



# Cahangir Novruzova "Xalq artisti" fəxri adı təqdim olunub

Məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə tanınmış aktyor və rejissor, Adana Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzov "Xalq artisti" fəxri adına layiq görülüb.



Sentyabrın 23-də Mədəniyyət naziri Əbülfəs Qarayev fəxri adın nişan və vəsiqəsini Cahangir Novruzova təqdim edib.

Nazir bildirib ki, Azərbaycan mədəniyyətinə böyük töhfələr vermiş məşhur nəslin nümayəndəsi olan aktyor öz soyunun sənət yolunu layiqincə davam etdirir. Cahangir Novruzov teatr sənətimizin zəngin ənənələrini Türkiyədə – Adana Çukurova Universiteti Dövlət Konservatoriyasında təbliğ edir və artıq həmin təhsil ocağında öz məktəbini formalaşdırıb.

Əbülfəs Qarayev dövlət başçısının sərəncamı ilə yüksək fəxri ada layiq görülməsi münasibətilə sənətkarı təbrik edib, ona yeni uğurlar arzulayıb.

Yaradıcılığına verilən yüksək qiymətə görə dövlət başçısına minnətdarlığını bildirən Cahangir Novruzov bundan sonra da mədəniyyətimizin inkişafı və təbliği istiqamətində çalışacağını vurğulayıb.

# Filippdən "Polonez" və ... "Per Günt"




*əvvəli səh. 1-də*

Konsert F.Şopenin ilk notlarından hər kəsin tanıdığı "Polonez lya bemol major" əsəri ilə başladı. İnsanı ömrünün ilk çağlarına aparan "Layla"dan sonra isə Azərbaycan sənətsevərlərin təsəvvüründə "Təhminə" filmi ilə assosiasiya olunan noktürnlər çalındı.

Lakin nakam məhəbbət əhvalatının təəssüratı tam yenilənməmiş F.Kopaçevski İ.Bramsın fortepiano üçün solo əsərlərinə keçid aldı. Daha çox major (şən, şux) ladlarda bəstələnmiş əsərlərin içində "Macar rəqsi" ruhumuzu yenidən baş verəcək əhvalatların xoşbəxt sonluqlara köklədi.

Filipp Kopaçevskinin Bakı konsertində ifa etdiyi sonuncu əsər isə adı Norveç musiqisinin rəmzinə çevrilmiş Edvard Qriqin "Per Günt" süitası oldu. Bu əsərin maraqlı yaranma tarixçəsi var. 1876-cı il fevralın 24-də Henrik İbsenin eyniadlı pyesinin ilk tamaşasına bəstəkarın yazdığı musiqi çox uğurlu alındı və dramaturq ilə bəstəkarın dünya şöhrətinin təməlini qoydu. Bir Norveç kəndindən xoşbəxtlik axtarışına çıxan sadə kəndli balası Per Güntün başına gələnlərdən və uydurduğu əhvalatlardan bəhs edən pyes öz musiqisi ilə birlikdə bəyənildi. Musiqi tamaşaçıların ürəyinə o qədər yatdı ki, müəllif sonralar həmin musiqi parçalarının təkcə dramatik teatrda deyil, həm də konsertlərdə səslənməsindən ötrü onları orkestr üçün iki süita olaraq işlədi.

Rusiyalı ifaçı da birinci "Per Günt" süitasının solo fortepiano işləməsini böyük ustalıqla, bəstəkarın mənzərə-pyes kimi təqdim edilən əsərlərini simfonik orkestrin çoxsəsli ifası kimi çatdırdığı dərəcədə səsləndirdi. Kopaçevskinin ifasını dinlədikcə düşünürdün ki, gerçəkdən də ən nüfuzlu müsabiqələrdən laureat çıxmaq üçün böyük istedadla yanaşı, mütləq əsər seçimində ifaçı cəsarətin də olmalıdır.

**GÜLCAHAN**

# Üzeyir festivalında "Rast" dünyası"

Beynəlxalq Muğam Mərkəzində "Rast" dünyası" adlı konsert proqramı təqdim olunub. Musiqi gecəsi XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində reallaşıb.




Konsert proqramının aparıcısı, Yazıçılar Birliyinin katibi İlqar Fəhmi ölkəmizdə ənənəvi olaraq təşkil edilən musiqi bayramının əhəmiyyətindən söz açıb. Bildirib ki, hər bir insanın içində öz musiqisi var: "Bu musiqi fərqli olsa da, insanları birləşdirə bilir. Üzeyir festivalı da rəngarəng proqramı ilə məhz bu amala xidmət edir. Bugünkü konsert öz fərqliliyi ilə seçilir. Bu axşam "Rast"ın dərin fəlsəfəsindən zövq almaq imkanı qazanacağıq. "Rast" dünyası" bizdə coşqunluq, çağırış ruhu, əzəmət, təntənə əhvalı yaradacaq".

Tədbirdə Azərbaycan musiqisini, muğamını çox sevən, təbliğ edən ud ifaçısı və müğənni Fəraməz Gərmrudinin "Rast": təsniflər və rənglər" kitabının təqdimatı da keçirilib. Əməkdar incəsənət xadimi Cahangir Səlimxanov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Sənubər Bağırova, Xalq artisti, tarzən Möhlət Müslümov kitabın əhəmiyyətini yüksək qiymətləndiriblər. Üzeyir Hacıbəyli festivalı çərçivəsində təqdim olunan nəşr milli musiqimizə töhfə kimi səciyyələndirilib.

Konsert proqramında tamaşaçılar "Könül" ansamblının müşayiəti ilə xalq artistləri Aygün Bayramova, Nəzakət Teymurova və Teyyub Aslanovun ifalarını dinləyiblər. Xanəndələrin hər birinin "Rast" muğamına özünəməxsus yanaşma nümayiş etdirməsi alqışlarla qarşılanıb.

**LALƏ**

# Şəhər və rayonlarda vətəndaşların növbəti qəbulları keçirilib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, sentyabrın 20-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev Naftalan şəhərində Naftalan şəhəri və Samux rayonundan olan vətəndaşlarla görüşüb.







Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev həmin gün Gəncə şəhər Heydər Əliyev Mərkəzində Gəncə şəhəri və Kəlbəcər rayonundan, nazir müavini Rafiq Bayramov Goranboy rayon Heydər Əliyev Mərkəzində Goranboy və Xocalı rayonlarından olan vətəndaşları qəbul ediblər.

Qəbullardan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, abidə önünə tər çiçək dəstələri düzülüb.

Nazir Əbülfəs Qarayev vətəndaşlarla görüşdən əvvəl yeni təmir-bərpa olunmuş Naftalan şəhər Mədəniyyət Mərkəzi, şəhər Tarix-Diyarşünaslıq Muzeyi və Nizami Gəncəvi adına Mərkəzi Kitabxana ilə tanış olub. Nazir mədəniyyət müəssisələrinin fəaliyyətinin daha da yaxşılaşdırılması, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində zəruri addımları diqqətə çatdırıb. Hərbi hissələrlə sıx əməkdaşlıq, hərbi hissələrdə konsert proqramlarının və səyyar kitabxanaların təşkil olunmasının vacibliyi vurğulanıb. Nazir həmçinin bölgəyə gələn turistlərin mədəniyyət müəssisələrinin göstərdiyi xidmətlərdən yararlanması, istirahət mərkəzlərində səyyar kitabxanaların təşkil olunması və digər bu kimi məsələlərin həlli istiqamətində tapşırıq və tövsiyələrini verib.

Naftalandakı Heydər Əliyev Mərkəzində keçirilən qəbulda şəhər sakinləri tərəfindən Uşaq musiqi məktəbi üçün yeni binanın tikilməsi və ya məktəbin fəaliyyət göstərdiyi binanın Mədəniyyət Nazirliyinin balansına keçirilməsi, kitabxanalara orta məktəb şagirdləri üçün yeni kitabların verilməsi, suvenir sənətinin inkişafı ilə bağlı məktəbin açılması və digər məsələlər haqqında xahiş və təkliflər səsləndirilib.

Həmçinin Samux rayonu ərazisində arxeoloji qazıntı işlərinin aparılması, xalçaçılığın inkişafı üçün zəruri ləvazimatların verilməsi, Samux rayon Mədəniyyət Mərkəzinin əsaslı təmir edilməsi, rayon Tarix-Diyarşünaslıq Muzeyinə ştatların verilməsi, işlə təmin olunma barədə müraciətlər olub.

***

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin Gəncədə keçirdiyi qəbulda Gəncə Şəhər Tarix-Diyarşünaslıq Muzeyinin təmir olunması, Mərkəzləşdirilmiş Kitabxana Sisteminə yeni nəşr olunmuş kitabların verilməsi, Kəlbəcər rayon Uşaq incəsənət məktəbində nağara sinfinin açılması, fəxri adların verilməsi və işlə təmin olunma ilə bağlı müraciətlər səsləndirilib.

***

Nazir müavini Rafiq Bayramovun vətəndaşlarla görüşündə Goranboy sakinlərinin müraciətləri rayon ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş əşyaların Tarix-Diyarşünaslıq Muzeyinə verilməsi, rayonda yerləşən türbələr kompleksinin təmir-bərpası, folklor qrupunun milli geyimlərlə təminatı, "Faxralı" xalçalarının qədim nümunələrinin eskizlərinin əldə olunması barədə olub. Həmçinin Xocalı sakinlərinin məskunlaşdığı Aşağı Ağca kənd qəsəbəsində Mədəniyyət mərkəzinin yaradılması, Xocalı şəhər Uşaq musiqi məktəbində saz sinfinin açılması, işlə təmin olunma barədə müraciətlər edilib.

Mədəniyyət Nazirliyinin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilən qəbullarda bütün müraciətlər diqqətlə dinlənilib, qaldırılan məsələlərin əksəriyyəti yerindəcə həll edilib, bəzilərinin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib. Ümumilikdə qəbullarda 50 nəfərə yaxın vətəndaş iştirak edib.

**FARİZ**

## Yubilyar alimə həsr olunmuş sərgi

Sentyabrın 21-də Azərbaycan Milli Kitabxanasında Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Milli Məclisin deputatı, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Nizami Cəfərovun anadan olmasının 60 illiyi münasibətilə geniş kitab sərgisi açılıb.

"Nizami Cəfərov 60" adlı sərgidə akademikin Azərbaycan, rus və digər dillərdə nəşr olunmuş əsərləri, redaktoru olduğu, ön söz yazdığı, rəy verdiyi, həmçinin haqqında yazılan kitablar və dövri mətbuat materialları yer alıb.

## Yeni mövsüm "Qarabağnamə" ilə açılıb

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı ənənəyə sadiq olaraq yeni teatr mövsümünü "Qarabağnamə" tamaşası ilə açıq elan edib. Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında hazırlanan tamaşanın rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədovdur.

Açılışdan öncə teatrın bədii rəhbər-direktoru, Xalq artisti Azər Paşa Nemətov çıxış edərək sənət ocağının uğurlarından və gələcək planlardan söz açıb. Dövlət başçısının Azərbaycanın mədəniyyət və incəsənətinə göstərdiyi diqqət və qayğıdan danışan direktor vurğulayıb ki, oktyabrda Akademik Milli Dram Teatrının 100 illiyi qeyd ediləcək. O, kollektivi yeni mövsümün başlanması münasibətilə təbrik edib, yeni nailiyyətlər arzulayıb.

Sonra tamaşa nümayiş olunub.

## Ağdam teatrında "Mən ölməyəcəyəm"

Ağdam Dövlət Dram Teatrı yeni mövsümünü sentyabrın 23-də Əməkdar artist Novruz Cəfərovun "Mən ölməyəcəyəm" tamaşası ilə açıb.

Tamaşanın quruluşçu rejissoru Səbuhi Əhmədov, quruluşçu rəssamı Elman Balakişiyev, musiqi tərtibatçısı İlqar Saatovdur. Rollarda Əməkdar artist Fəqumə Yusifova, Fərhad Fərhadzadə, Xəyalə Xudadatova, Qalib Abdullazadə, Elşən Cavadov, Elgiz Mürşüdov, Nizami Ələkbərov çıxış ediblər.

# Nazir Gəncə şəhərində mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olub

Müntəzəm olaraq şəhər və rayonlarda əhali ilə keçirilən görüşlər bir çox məsələlərin operativ şəkildə həll olunması baxımından yaxşı təcrübədir.

Mədəniyyət naziri Əbülfəs Qarayev bu sözləri sentyabrın 20-də Naftalan şəhərində vətəndaşların qəbulundan sonra mətbuata açıqlamasında bildirib.

Nazir vətəndaşlar tərəfindən qaldırılan məsələlərin əhəmiyyətini vurğulayıb: "Regional idarəçilik bizə imkan verir ki, yerlərdə real olaraq mədəniyyət sahəsinin inkişafını təmin edək, bu istiqamətdə daha çox işlər görək. Naftalanda Tarix-Diyarşünaslıq Muzeyi, Mədəniyyət Mərkəzi və Mərkəzi Kitabxana üçün gözəl şərait yaradılıb. Artıq insanlar burada göstərilən mədəni xidmətlərdən daha rahat şəraitdə yararlana bilərlər".

Nazir qəbulda qaldırılan məsələlərin öz həllini tapacağını vurğulayıb. Bildirib ki, Mədəniyyət Nazirliyi sistemindəki uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərinə 2019/2020-ci tədris ili üçün pedaqoji kadrların işə qəbulu üzrə müsabiqəyə yekun vurulub və 120 nəfərdən çox müəllim müvafiq təhsil ocaqlarında işə qəbul edilib. Boş qalan yerlərə isə yeni müsabiqənin keçirilməsi nəzərdə tutulur.

Bölgədə yerləşən mədəniyyət müəssisələrinin nəzdində əl işlərinin və suvenirlərin hazırlanması üzrə dərnəklərin yaradılmasına da dəstək göstəriləcək. Həmçinin tarixi abidələrin vəziyyəti ilə bağlı müraciətlər də diqqətdə saxlanılacaq.



Əbülfəs Qarayev "Sınıq körpü"də aparılan təmir-bərpa işlərindən bəhs edərək deyib ki, orada işlər nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nəzarəti altında mütəxəssislərin iştirakı ilə aparılır. Təmir-bərpa işlərinin bu ilin sonuna kimi yekunlaşması nəzərdə tutulur.

Heydər Əliyev Fondu tərəfindən Gəncə Dövlət Dram Teatrında tikinti işlərinin davam etdirildiyini deyən nazir bildirib ki, gələn mövsümə kimi tikinti işlərinin başa çatacağını gözləyirik.

Qeyd edək ki, Əbülfəs Qarayev Naftalan şəhərində qəbuldan sonra Gəncə şəhərinə gələrək bir sıra mədəniyyət müəssisələrinin fəaliyyəti ilə də tanış olub.

Nazir ilk olaraq Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasına gəlib. Filarmoniyanın fəaliyyəti, təşkil olunan konsertlər haqqında məlumat verilib. Nazir burada fəaliyyət göstərən musiqi kollektivlərinin – Gəncə Dövlət Kamera Orkestrinin, yeni yaradılmış "Xəmsə" estrada ansamblının məşqlərinə baxıb.

Əbülfəs Qarayev Nizami Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyinə də baş çəkib. Muzeyin fəaliyyəti, eləcə də muzeyin həyətində yaradılmış açıq səma altında ekspozisiya haqqında ətraflı məlumat verilib.

Nazir XIX əsr "Hüseyniyyə" tarix-memarlıq abidəsini və Mirzə Şəfi Vazeh muzeyini də ziyarət edib.

Əbülfəs Qarayev daha sonra Telman Hacıyev adına Gəncə şəhər 2 nömrəli Uşaq musiqi məktəbində olub. Məlumat verilib ki, məktəbin yerləşdiyi bina 1903-cü ildə inşa olunub. 1959-cu ildən məktəb bu binada fəaliyyət göstərir. Binanın əsaslı təmir-bərpasına böyük ehtiyac var. Nazir bu məsələyə baxılacağını bildirib.

Nazir mədəniyyət müəssisələrinin fəaliyyətinin daha da yaxşılaşdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

# İtaliyalı azərbaycanlı

## "Nə vaxt dəvət edilsəm, yenə Bakıya gələcəyəm"




*əvvəli səh. 1-də*

**- Aleksandr, Sizi italiyalı pianoçu kimi təqdim etsələr də, Azərbaycanla bağlılığınız var. Elə deyilmi?**

- Bəli, mən əslən azərbaycanlıyam. Atam və ata tərəfdən qohumlarım azərbaycanlıdır. Atam Siyavuş Hacıyev Bakıda doğulub, pianoçudur. Ali təhsil almaq üçün Moskvaya gedib. Təhsilini bitirdikdən sonra orada pedaqoji fəaliyyətlə məşğul olub. 25 il əvvəl isə İtaliyaya köçüb. Hazırda orada həm yaradıcılıq, həm də pedaqoji fəaliyyətini davam etdirir. Onun tələbələri dünyanın tanınmış pianoçularıdır. Mən İtaliyada dünyaya gəlmişəm. Əfsus ki, atam işləri ilə əlaqədar mənimlə gələ bilmədi. Onu da deyim ki, bu mənim Bakıya ilk səfərim olsa da, atam öz doğma şəhərinə gəlib-getməyə vaxt ayırır. Nənəm də İtaliyaya – bizim yanımıza köçdüyü üçün bir az gediş-gəlişimiz azalıb. Bu festivalda iştirak etmək mənim həyatımda böyük hadisədir.

**- Atanızın yolunu özünüz davam etdirmək istədiniz, yoxsa onun istəyi oldu?**

- Mənim anam da pianoçudur. Evdə iki pianoçunun əhatəsində digər sahəni seçmək qeyri-mümkün oldu hər halda. Mənim ilk nəticələrim pis alınmadı və belə qərara gəlindi ki, mən bu işi davam etdirim. Bu sahə ilə məşğul olmağım isə bu gün mənim doğma vətənimə gəlməyimə vəsilə oldu.

**- Yəqin ki, ailənizdə Azərbaycan musiqisi də səslənir.**

- Əlbəttə, mütəmadi. Mən uşaqlıqdan milli musiqini də dinləmişəm, Azərbaycan rəqs havalarını da. Milli musiqi alətlərimizi də tanıyıram.

**- Azərbaycan bəstəkarlarının əsərlərini necə, ifa edirsinizmi?**

- Düzü, konsert proqramlarımda hələ Azərbaycan bəstəkarlarının əsərlərinə müraciət etməmişəm. Amma belə niyyətim var. Əslində, festivala dəvətlə bağlı bu arzumu reallaşdırmaq istərdim. Sadəcə, dəvət gözlənilməz oldu və bu arada planlanmış və gərgin iş qrafikim üzündən bu məsələni reallaşdıra bilmədim. Amma dəqiq deyə bilərəm ki, bu fikri həyata keçirəcəyəm.

**- Bildiyimizə görə, hazırda Berlində yaşayırsınız. Bunun bir səbəbi varmı?**

- Ona görə ki, orada həm təhsil alıram, həm də yaradıcılıqla məşğul oluram. Digər əsas səbəb isə odur ki, Berlin bu gün Avropanın ən böyük musiqi mərkəzlərindən biri sayılır. Orada çoxsaylı orkestrlər və musiqi zalları fəaliyyətdədir və musiqiyə gözəl münasibət var.

**- Bu gün dünyada tanınmış pianoçular çoxdur. Bu sırada seçilmək çətin deyil ki?**

- Düşünürəm ki, sadəcə öz potensialını inkişaf etdirməlisən. İç dünyanda nələr varsa, onu realizə etməyi bacarmalısan. Bir də öz şəxsiyyətini bütövləşdirməlisən, çox çalışmalısan. Bundan sonra bütün yollar öz-özünə açılacaq. Qeyd etdiyim məqamlarla bərabər, əgər sənin şansın və irəli getmək istəyin varsa, bu, reallaşaq. Bunun üçün oturub nəyisə düşünməyə ehtiyac yoxdur.

**- Bakını gəzə bildinizmi?**

- Atam həmişə mənə deyirdi ki, Bakı İtaliya şəhərlərinə bənzəyir. Bunun şahidi oldum. Güclü külək də qəribə hisslər yaşadır. Arxitektura, külək, şəhərin özəlliyi qəribə bir mif hissi yaradır.

**- Evinizdə Azərbaycan yeməkləri hazırlanırmı?**

- Anam sloveniyalıdır. Amma evimizdə milli mətbəx hazırlanır. Bir əsas səbəb var ki, milli yeməyin dadını əldə etmək üçün məhz yaxşı məhsullar, yəni uyğun məhsullar lazımdır. İtaliya ərzaqları ilə hazırlanan Azərbaycan yeməyi isə heç də Azərbaycanda hazırlanan yeməyin dadını verə bilməz. Burada daha dadlı, daha təbiidir.

**- Beynəlxalq Muğam Mərkəzinin səhnəsini bəyəndinizmi?**

- Çox gözəl səhnədir. Binanın arxitekturası çox gözəl təəssürat yaradır. Səsləndirmə də standartlara uyğundur. Azərbaycanın milli muğam sənətinin simvolu olan səhnədə çıxış etməyim də mənim üçün bir hadisədir.

**- Sizi Bakıda bir də nə vaxt gözləyək?**

- Bəlkə də inanmayacaqsınız, amma mən birgünlüyə gəldim və konsertdən sonra gecə qayıdıram. Səbəb isə odur ki, sabah Buxarestdə, daha sonra Romada konsertim olacaq. Amma nə vaxt dəvət edilsəm və zamanım olsa, mütləq yenə Bakıya gələcəyəm. İnanıram ki, gələcəkdə belə bir fürsət olacaq və mən burada xeyli qalmaq imkanı əldə edəcəyəm.

***

İtaliyalı soydaşımızın solo konsertini sənətsevərlər səbirsizliklə gözləyirdilər.

Musiqi axşamında Mədəniyyət naziri Əbülfəs Qarayev, musiqi ictimaiyyətinin nümayəndələri iştirak edirdi. İfaçının proqramına L.Bethoven, F.List, S.Prokofyev kimi klassik bəstəkarların əsərləri daxil edilmişdi. Aleksandr Hacıyevin ifası tamaşaçıların zövqünü oxşadı, gur alqışlarla qarşılandı. Gənc pianoçunun ata-baba vətənində ilk çıxışı yəqin ki, onun yaddaşında da, musiqi tarixi səhifəmizdə də uzun zaman qalacaq.

**L.AZƏRİ**

# Neftçilərin Üzeyir Hacıbəyli festivalına musiqi töhfəsi



Sentyabrın 20-də Azərbaycanda Neftçilər Günü və "Əsrin müqaviləsi"nin 25-ci ildönümü qeyd olundu.

1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və dünyanın aparıcı neft kompaniyaları arasında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi haqqında beynəlxalq müqavilənin imzalanması ilə ölkəmizin müstəqil neft strategiyasının əsası qoyulub. Ulu öndər Heydər Əliyevin banisi olduğu bu strategiya XXI əsr Azərbaycanının, yeni dövlət quruculuğunun möhkəm iqtisadi, geosiyasi sütunu oldu. Bu, o dövr üçün dünyanın ən böyük neft müqaviləsi idi və miqyasına, strateji mahiyyətinə uyğun olaraq "Əsrin müqaviləsi" adı ilə tarixə həkk edildi.

Bu münasibətlə sentyabrın 20-də Heydər Əliyev Mərkəzində möhtəşəm konsert proqramı təqdim edilib. Ölkəmizdə davam edən XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı ilə bir vaxta təsadüf edən konsert proqramı, eyni zamanda neftçilərin bu musiqi bayramına töhfəsi olub.

Konsertdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı orkestrinin (dirijor Əyyub Quliyev) müşayiəti ilə Azərbaycan, Türkiyə və Gürcüstanın üç tanınmış tenoru çıxış edib. Gecədə üç ölkənin görkəmli bəstəkarlarının əsərləri səsləndirilib.

Konsert Üzeyir Hacıbəylinin "Koroğlu" operasından uvertüra ilə başlayıb. Daha sonra "Koroğlu" operasından Koroğlunun ariyası (solist Samir Cəfərov), gürcü bəstəkarı Zaxar Paliaşvilinin "Daisi" operasından Malxazın ariyası (solist Georgi Davitadze), türk bəstəkarı Ali Rza bəy Kaptanzadənin "Efem" türküsü (solist Levent Gündüz) səsləndirilib.

Proqramda, həmçinin Polad Bülbüloğlunun "Eşq və ölüm" baletindən "Cəngi", Tofiq Quliyevin "Sənə də qalmaz" (solistlər Samir Cəfərov və Levent Gündüz) mahnısı, Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Əsgərin ariyası (Samir Cəfərov, Georgi Davitadze), italyan mahnılarından ibarət popurri (üç tenorun ifasında), Cakomo Puççininin "Turandot" operasından Kalafın ariyası (üç tenor), "Qranada" və "Xalq Heydər söyləyəcək" (hər ikisi üç tenorun ifasında) mahnıları təqdim olunub.

## Neft Daşlarında konsert

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Yeni Azərbaycan Partiyası Pirallahı və Binəqədi rayon təşkilatlarının birgə təşkilatçılığı ilə Neft Daşları qəsəbəsində 20 sentyabr – Neftçilər Günü və "Əsrin müqaviləsi"nin 25 illiyi ilə əlaqədar bayram tədbiri keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin büstü və qəhrəmancasına həlak olmuş neftçilərin xatirə kompleksi önünə gül dəstələri qoyublar.

Tədbirin rəsmi hissəsində "Əsrin müqaviləsi"nin ölkəmizin həyatında rolundan danışılıb.

Sonra tanınmış incəsənət ustaları gözəl ifaları və rəqsləri ilə neftçilərin peşə bayramını təbrik ediblər.

# Bakı Musiqi Akademiyasında orqan axşamı

XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində növbəti konsert sentyabrın 21-də Bakı Musiqi Akademiyasında təşkil olunmuşdu.



"Orqanın Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasındakı 55 illik tarixi" mövzulu tədbirdə söz musiqiyə verilməzdən öncə bu alətin Bakı Musiqi Akademiyasında tədrisi barədə ətraflı məlumat verildi.

Akademiyanın orqan müəllimi Səbinə Bəylərbəyova ötən illər ərzində qazanılan nailiyyətlərdən bəhs etdi. Diqqətə çatdırıldı ki, orqan ifaçılıq sənətinin ölkəmizdə, bu tədris ocağında təşəkkülü professor, Əməkdar incəsənət xadimi Zəhra Cəfərovanın adı ilə bağlıdır. 1961-ci ildən Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) fortepiano şöbəsi nəzdində orqan sinfi fəaliyyətə başlayıb. 1995-ci ildən Orqan və klavesin kafedrası kimi öz fəaliyyətini daha da genişləndirib. Tədris ocağında orqan aləti 1964-cü ildə quraşdırılıb.

Sonra söz beynəlxalq müsabiqələr laureatı, orqan ifaçısı Yevgeni Avramenkoya (Rusiya) verildi. Ölkəmiz, festival haqqında xoş təəssüratlarını bölüşən qonaq dəvətə görə təşəkkürünü bildirdi, orqanda Azərbaycan bəstəkarlarının bir çox əsərlərini ifa etdiyini dedi.

Sonra tədbir qonaq ifaçı və akademiyanın müəllim və məzunlarının çıxışları ilə davam etdi. Y.Avramenkonun ifasında İohann Sebastyan Baxın orqan üçün əsərlərindən hissələr, Almaniyada yaşayan azərbaycanlı bəstəkar, orqan üçün əsərlər müəllifi Arif Mirzəyevin "Üzeyir Hacıbəyliyə ithaf" simfoniyası səsləndirildi. BMA-nın müəllimi Rasimə Babayeva Nazim Əliverdibəyovun orqan üçün "Bayatı-Şiraz"ını ifa etdi.

**HƏMİDƏ**

# "İfa zamanı qəlb və ağıl bir arada olmalıdır..."



XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalında müxtəlif ölkələrdən musiqiçi və kollektivlər iştirak edir. Paytaxtımızın qonaqlarından biri də rusiyalı violin ifaçısı, P.Çaykovski adına XVI beynəlxalq müsabiqənin qalibi Sergey Doqadindir. İfaçı artıq bir neçə dəfə Bakıda olub və Azərbaycan bəstəkarlıq məktəbinə bələddir.

Festival çərçivəsində musiqiçinin Beynəlxalq Muğam Mərkəzində ustad dərsi (19 sentyabr) də təşkil olundu. Bülbül adına Orta ixtisas musiqi məktəbi və paytaxtın musiqi məktəblərinin bir qrup müəllim və şagirdlərinin iştirak etdiyi dərsdə fasilə zamanı ifaçıya bir neçə sual ünvanladıq.

**- Sizi Bakıda görməkdən məmnunuq. Festivalın açılışında çıxışınızla bağlı təəsüratlarınızı bilmək istərdik...**

- Bakıda, bu möhtəşəm festivalda iştirakımdan hədsiz məmnunam. Son beş ildə dəfələrlə bu şəhərdə qonaq olmuşam. Bakı əsrarəngiz şəhərdir. Mən burada ruhən dincəlirəm. Üzeyir Hacıbəyli festivalında isə birinci dəfədir iştirak edirəm. Festivalın açılışında çıxışım da rəğbətlə qarşılandı. İlk konsertdə iştirak etmək, təbii ki, xoş oldu. Təşkilatçılara minnətdaram ki, məni bu festivala dəvət ediblər. Bu tədbirdə bir çox ölkələrdən tanınmış ifaçılar iştirak edirlər və onların bir çoxu ilə gözəl dostluq münasibətlərimiz var. İnanıram ki, Azərbaycan tamaşaçıları onların ifalarından böyük zövq alacaqlar. Əfsus ki, özüm festivalı axıracan izləyə bilməyəcəyəm. Çünki qarşıda konsert proqramlarım var. İlin sonuna kimi dünyanın müxtəlif şəhərlərində 46 konsertim reallaşacaq. Azərbaycanı da, bu nağılvarı şəhəri də çox sevirəm.

**- Bildiyimizə görə, Rusiyanı təmsil etsəniz də, Vyanada yaşayırsınız...**

- Bəli, artıq üç ildir ki, Vyanada yaşayıram. Amma çalışıram ki, imkan olan kimi Rusiyaya gəlib Moskvada və doğma şəhərim Sankt-Peterburqda konsertlər verim.

**- Bakıda dəfələrlə olmusunuz. Demək, Azərbaycan musiqisi ilə tanışsınız.**

- Əlbəttə. Mən bir sıra Azərbaycan bəstəkarlarının əsərləri ilə tanışam. Təəssüf ki, çoxsaylı konsertlərə görə əlavə məşqə, proqrama yenilik etməyə vaxtım olmur. Növbəti dəfə Bakıya gəlişimdə, söz verirəm ki, mütləq Azərbaycan bəstəkarlarının əsərləri də repertuarımda olacaq.

**- Ustad dərsinizdə iştirak edənlərin timsalında gənc istedadlarımızı necə dəyərləndirirsiniz?**

- Bütün uşaqlara eşq olsun! Çox istedadlı və bacarıqlı şagirdlərdirlər. Düşünürəm ki, mənim kimi onlar da bu ustad dərsindən razı qaldılar. Çalışdım ki, onlarla detallı şəkildə və məhsuldar məşğul olum və mənimlə xoş təəssüratlarla ayrılsınlar. Son 3 ildə ardıcıl olaraq ustad dərsləri verirəm. Koreyada, ABŞ-da, Latviyada, Rusiya və digər ölkələrdə belə dərslərim təşkil olunub. Düzü, pedaqoji fəaliyyətlə məşğul olmağa o qədər də vaxtım yoxdur. Gənc həmkarlarımla tanış olmağın, onlarla ünsiyyətin yeganə yolu ustad dərsləridir və mən bu fəaliyyətimdən çox məmnunam.

**- Azərbaycanlı musiqiçilərlə əlaqələriniz varmı?**

- Əlbəttə. Azərbaycanlı dostlarımdan dirijor Mustafa Mehmandarov və Fuad İbrahimovu qeyd edə bilərəm. Eləcə də bir çoxları var ki, biz onlarla mütəmadi olaraq xarici ölkələrdə konsertlərdə görüşürük.

**- Bir çox beynəlxalq müsabiqələrdə iştirakçı və qalib olmusunuz...**

- Müsabiqələr hər bir yeni başlayan musiqiçi üçün vacibdir. Əgər böyük səhnəyə iddialısansa, mütləq yolun müsabiqədən keçməlidir. Müasir müsabiqələr böyük təcrübə olmaqla bərabər, həm də psixoloji cəhətdən çox gərginlik yaradır. Təsəvvür edin ki, çox geniş bir proqramı yaddaşına həkk edərək böyük orkestrlərlə bu müsabiqələrdə iştirak etməli və mütləq qalib olmalısan. Bu, sözsüz ki, çox çətindir və yalnız iradəli insanlar bu gərgin rejimlə çalışıb mötəbər müsabiqələrdə iştirak hüququ qazanırlar. Mənim bəxtim onda gətirdi ki, müsabiqələrdə iştirakım uğurlu oldu. P.Çaykovski adına müsabiqədən sonra bu fəaliyyətimə son vermək qərarına gəldim. Bu mükafat hər bir violin ifaçısının ən böyük arzusudur və bizim sahə üzrə ən mötəbər mükafatdır.

**- Bir az da ifa etdiyiniz alətlə bağlı danışardınız.**

- Hazırda konsertlərdə ifa etdiyim alət italyan ustası Domeniko Montanyanka tərəfindən hazırlanan unikal alətlərdən biridir. Bu alətdən istifadə etmə müddətim 2020-ci ilə qədərdir. Daha sonrakı dövr üçün isə hələ ki, bəlli deyil.

**- Gənc həmkarlarınıza məsləhətiniz varmı?**

- Yaxşı olardı ki, ifa zamanı qəlbləri və ağıllarını işə salsınlar. Bu, saatlarla məşqdən azad olmanın ən yaxşı yoludur.

**- Fəaliyyətinizdə uğurlar arzulayırıq.**

- Sağ olun. Mən də bir daha Bakı tamaşaçılarına və festivalın təşkilatçılarına minnətdarlığımı bildirirəm.

**Lalə AZƏRİ**

# Təbrizdən gələn qonağımızın arzusu

## "Gəncədə tamaşa oynayacağım günün həsrətini çəkirəm..."

Üzeyir Hacıbəyli festivalının bir qonağı da İran İslam Respublikasından gəlmiş tanınmış aktyor və rejissor Babək Nəhreyn idi. Qonağımızın neçə vaxtdan bəri yaradıcılıq münasibəti qurduğu Azərbaycan Dövlət Akademik Musiqili Teatrı festivala qoşularaq, sentyabrın 20-də 110-cu mövsümü "O olmasın, bu olsun" komediyası ilə açdı. Babək Nəhreyn həmin tamaşada ilk dəfə Hambal rolunda çıxış etdi. İranda isə o, təkcə komik aktyor kimi yox, həm də "Babək" özəl teatrının rəhbəri, festival təşkilatçısı kimi məşhurdur. Bu barədə isə qonağımız özü danışsın.

Söhbətimiz tamaşadan öncəyə təsadüf edir deyə, nə qədər təcrübəli olsa da, Babək bəyin həyəcanı hiss olunur.

- Üç il Şərqi Azərbaycan Teatr Assosiasiyasının rəhbəri oldum, amma sonra davam etmək istəmədim. Gördüm ki, təşkilati işlər vaxtımı çox alır. Səhnəyə çıxmağa, tamaşa hazırlamağa vaxtım, demək olar ki, qalmır. Halbuki mən səhnədə olmağı çox sevirəm. "Əlif" beynəlxalq teatr festivalının da rəhbəriyəm. Ötən il ilk dəfə keçirilən festivala 8 ölkədən teatr kollektivi gəlmişdi. Çox şad oldum ki, birinci mükafatı Azərbaycandan Şövqi Hüseynov "Kontrabas" tamaşası ilə qazandı.

**- Bəs bu il necə, Azərbaycandan teatr qonağınız olacaq?**

- Bəli. Dekabrın 1-dən 5-dək növbəti festivalı keçirəcəyik. Azərbaycandan da teatrların gəlməsini gözləyirik.

**- Azərbaycan teatrı ilə münasibətiniz necə yarandı?**

- Uzun illər çox istəyirdim ki, İranla Azərbaycan arasında bir teatr körpüsü salınsın. Tehranda, İsfahanda Azərbaycan teatrları ilə tez-tez rastlaşırdım, amma nədənsə Təbrizdə tamaşa oynamaqları baş tutmurdu. Çox şadam ki, bu işi görmək mənə qismət oldu. 2016-cı ildə Musiqili teatrın direktoru Əliqismət Lalayevlə tanış olduq, birlikdə yaradıcılıq planları üzərində çalışdıq və yol açdıq. 2017-ci ildə Novruz bayramı üçün məxsusi "Bəxtəvər" tamaşası hazırladıq, çox yaxşı da qarşılandı. Sonra Üzeyir bəyin "Ər və arvad" tamaşası Tehranda, Təbrizdə qastrolda oldu. Bir dəfə də bizim aktyorumuz Camal Sadiqinejat da gəlib "999-cu gecə"də çıxış etmişdi.

**- Bu gün də bizim teatrda "O olmasın, bu olsun" tamaşasında debütünüzdür.**

- Elədir… Əvvəllər bu tamaşada heç vaxt çıxış etməmişəm. Tamaşaya da diskdə baxıb rolumu öyrənmişəm.



**- Belə çıxır ki, Hambalı məşqsiz hazırlamısınız?**

- Elədir. Özüm təkbaşına Hambalı hazırlamışam. Uzun illər əvvəl, rəhmətlik atam da "O olmasın, bu olsun"da Hambal rolunda çıxış edib.

**- Deməli, atanız da aktyor olub?**

- Bəli, atam Həsən Nəhreyn Təbrizdə çox məşhur teatr aktyoru, rejissor idi. Ümumiyyətlə, bizim ailəmizdə sənət adamı çoxdur: aramızda aktyor, musiqiçi, rəssam, dirijor var… Yəni, mən teatr işini sənət olaraq seçəndə kimsə təəccüblənməmişdi. Sonra da Təbrizdə, Ərəşdə sənət təhsili aldım. Təbrizdə öz adımı verdiyim özəl teatrım var. Həm musiqili, həm də dram tamaşaları qururuq. Orkestrimiz, balet qrupumuz, aktyorlarla birlikdə 170 nəfərdən çox heyətimiz var. Baletmeysterimiz Pedram Nazir Bakıda xoreoqrafiya təhsili alıb. Hər ay bütün işçilər aylıqlarını (maaşlarını - red.) alırlar. Demək olar ki, hər gün də tamaşa oynayırıq.

**- Hər gün?...**

- Bizdə sabit, geniş repertuar yoxdu. Bir tamaşanı hazırlayırıq, oynayırıq, onunla qastrola gedirik, tamaşa öz seyrçisini itirməmiş digər tamaşanı hazırlayırıq. Həmişə teatrımızın yeni tamaşası var deyə, salonda bir yer də boş qalmır. Çox vaxt tamaşaya bilet bir ay əvvəldən satılır. Fəxr edirəm ki, İranda bilet satışına görə bütün teatrlardan birinciyik. Yayda Tehranda bir gündə "Nəhəngi-əmbər" tamaşamıza 6 min bilet satılmışdı…

**- Nə gözəl!... Bəs tamaşaları hansı dildə oynayırsınız?**

- Yalnız Azərbaycan dilində! İranda sayımız qırx milyondur. Hansı şəhərə getsək, orada Azərbaycan dilini anlayırlar. İranın, demək olar ki, bütün şəhərlərində, xüsusilə də Tehranda tez-tez tamaşa oynayırıq, xaricə gedirik. Almaniya, Hollandiya ən çox tamaşa oynadığımız ölkələrdir.

**- Bəs Üzeyir bəyin hansısa əsərində indiyədək çıxış etmisiniz?**

- Bəli, "Arşın mal alan"da Əsgəri oynayıram, amma bir dəfə də Vəli kimi səhnəyə çıxmışam.



**- Bəs deyirdiniz ki, sizdə davamlı repertuar yoxdu…**

- Təbrizdə belə bir ənənə yaranıb ki, hər il orucluqda "Arşın mal alan" tamaşasını mütləq oynayırıq. Hətta təbrizlilər deyirlər ki, orucluq gəlsəydi, "Arşın mal alan"a baxardıq.

**- Fikriniz hələ başlamamış tamaşada olduğundan bəlkə də yeni yaradıcılıq layihəsi barədə soruşmaq yerinə düşmür…**

- Niyə ki? Çox istəyərəm ki, Musiqili teatrla sıfırdan bir tamaşa quraq. Gərək Əliqismət müəllimlə bu məsələ barədə düşünüb-daşınaq. İstəyərdim ki, yığcam bir tamaşa hazırlayaq və Bakı-Təbriz adıyla dünyanı dolaşaq.

**- Gözəl arzudur, Allah yerinə yetirsin!**

- Dünyanın neçə ölkəsini gəzmişəm, amma təkcə Azərbaycanda özümü evdəki kimi azad, rahat hiss edirəm. İranla Azərbaycan iki qardaş ölkədir. Allaha çox şükür ki, dövlətlərimizin arasında heç bir problem yoxdur, ölkə başçıları da həmişə mehriban görüşürlər.

**- Bəs teatrla bağlı arzunuz?**

- Əslən Gəncədənik. Ən böyük arzum da Gəncədə səhnəyə çıxmaqdır.

***

Babək Nəhreyn ilə teatrla, yaradıcılıqla bağlı uzun və daha maraqlı söhbət etmək olardı. Amma nə qədər təcrübəli səhnə ustası olsa da, ilk dəfə oynayacağı rolun xofu, stresi özünü göstərir. Həm də necə olsa, "O olmasın, bu olsun"un ən koloritli obrazına tam uyğunlaşmaq üçün də qrim etmək lazım idi. Üstəlik, tamaşanın Məşədi İbadı – Əməkdar artist Şövqi Hüseynov da pərdə açılmamışdan öncə birlikdə səhnələrini təkrar keçmək üçün onu səhnə arxasında gözləyirdi…

**Gülcahan MİRMƏMMƏD**

№68 (1653)
25 sentyabr 2019
www.medeniyyet.az

# Bülbül ömrünün xatirəsi...

Xalqın məhəbbəti sənətkar üçün ən yüksək mükafatdır. Bu məhəbbəti bütün varlığı ilə öz elinə, vətəninə bağlanmış, xalqın yaradıcılıq dühasından bəhrələnmiş və kamala yetmiş, sənətin çətin və zəhmətli yollarından keçib zirvəyə qalxan sənət xadimləri qazanır. Xalqın məhəbbətini, elin rəğbətini qazana bilən sənətkarlar xoşbəxtdirlər. Bülbül də belə sənətkarlardandır.

Mədəniyyət tariximizdə böyük iz qoymuş sənətkarın vəfatından (26 sentyabr 1961) 58 il keçir. Ölməzliyə qovuşmuş sənətkar ömrü həm də xatirələrdə yaşayır.

Fikrimizcə, Bülbülün dostları, həmkarları arasında, eləcə də ailədə necə bir insan, şəxsiyyət olması oxucular üçün də maraqlı olar...

***

**Bülbülün ömür-gün yoldaşı Adelaida xanımın xatirələrindən:**

“Əhvali-ruhiyyəsinin yaxşı olmasının Bülbül üçün böyük əhəmiyyəti var idi. Bu, hər bir artist üçün, ən bacarıqlı olsa da, belədir. Mən də, bir şey anlamağa başladıqları ilk gündən uşaqlar da onun kefinə dəyməməyə, qanını qaraltmamağa çalışırdıq. İşdən ayrıldığı və ailəsinə bəxş etdiyi hər bir saat, hər bir gün bizim üçün bayrama çevrilirdi... İstirahət saatlarında Bülbül tamam başqa adam olurdu. Bütün işi, fikir və qayğıları bir tərəfə ataraq, başını hər cür yükdən azad edir, sevincə, şadlığa qərq olurdu. O bu vaxtlar sanki işıq saçırdı, bu nur bizim də üstümüzə düşürdü, öz “ailə kvartetimizlə” (Bülbül belə adlandırmağı sevirdi) gəzməyə çıxanda biz bu işığı daha parlaqlığı ilə hiss edirdik.

Hər yay biz uzaq bir yerə səyahətə çıxardıq. Hər şeyi bilmək istəyən, hər şeylə maraqlanan Bülbül səyahət ehtirasını, yeni-yeni yerlərlə, adamlarla tanış olmaq həvəsini ömrünün axırına kimi hifz etmişdi. Yorğunluq bilməzdi, maşında saatlarla gedər, çox mənzərəli yerə çatanda maşınını saxlamağı xahiş edərdi. Uşaqlıqdan təbiətin qoynunda böyüyən Bülbül bütün ömrü boyu təbiəti sevmişdi...

Hara getsəydi, həmişə çoxlu adamın əhatəsində olardı. Ünsiyyətli, mehriban, nəcib adam olduğundan, həmişə ətrafındakıları cəzb edər, məftun edərdi...

O, məzuniyyət zamanı səsinə tam istirahət verirdi, oxumurdu, məşq etmirdi. Bununla bərabər, bulaqdan su içir, hətta dondurma yeyirdi, özü də dondurmanı çox yeyirdi. Uşaqlar təəccüblənirdilər, onlar Bülbülün simasında özlərinə dondurma yoldaşı tapmışdılar. Qonaqlar, səs-küy, şənlik evimizdən əskik olmazdı. O da belə şeylərin xəstəsi idi, səliqəli, bəzəkli süfrəni xoşlardı. Təsadüfən nahara gəlib çıxmış adamlar “siz qonaq gözləyirsiniz” deyə, soruşanda, Bülbül həmişə zarafat edərdi: “Mən özüm bu evdə ən əziz qonağam”.

Evimizə bəstəkarlar, şairlər, yazıçılar, artistlər, musiqiçilər gəlirdi. Axşamlar, bayram günləri stol arxasında incəsənət haqqında qızğın mübahisələr gedir, yeni mahnılar, romanslar, ariyalar səslənir, yeni poemalar, şeirlər oxunurdu. Şəhərimizə gələn məşhur adamlardan, necə deyərlər, evimizin yanından keçib bizə gəlməyənlərin adını çəkmək, əlbəttə, çətindir. Qonaqpərvər ev sahibi gələnləri həmişə açıq ürəklə, səmimiyyətlə, gülə-gülə qarşılardı.

O, böyük həvəslə at belində gəzərdi. Atla səhnəyə çıxanda tamaşaçılar titrəyə-titrəyə çilovdan yapışan, indicə yıxılacağından qorxan artist deyil, igid atlı görürdülər.

Bəli, Bülbül hər şeyə vaxt tapır, hər işi həvəslə görürdü. O, məruzələr hazırlayır, məktublar, müxtəlif məsələlərə aid məqalələr yazırdı. Bülbül elmin bütün sahələri ilə maraqlanırdı. Şeriyyət, təbiət, gözəllik aşiqi idi. Bu gözəl insan, həqiqətən, gözəlliyin, insan gözəlliyinin əsl vurğunu idi. Gözəl olan hər bir şey onun ruhunu oxşayırdı...”.

**Dostları və müasirlərinin dilində...**

**Xalq artisti, bəstəkar Tofiq Quliyev yazırdı:**

“Mən Bülbülü Elmi Tədqiqat Musiqi Kabinetinin (ETMK) təşəbbüsçüsü və təşkilatçısı kimi xatırlayıram. Buraya o həm Azərbaycan xalq musiqisinin yaşlı bilicilərini, həm də gənc musiqiçi tələbələri cəlb etmişdi.



Onun iki qlobal məqsədi vardı: əvvəla, xalq musiqisi incilərini yazdırıb tarix üçün saxlamaq (axı, indiyədək xalq musiqisi nəsildən-nəslə şifahi şəkildə verilirdi). Nə qədər ki, C.Qaryağdıoğlu, S.Şuşinski, Q.Pirimov sağ idi, bunu eləmək vacib idi. İkincisi, bu yazılmalarla gənc musiqiçiləri doğma musiqinin saf bulağından su içməyə alışdırırdı, bu da gələcəkdə onların iri musiqi əsərlərində özünü büruzə vermişdi. Bu incilər təkcə ETMK-da yazılmırdı, onları yerindəcə yazdırmaq üçün Bülbül gənc musiqiçilərin respublikanın rayonlarına göndərişini təşkil edirdi. Bu gün, bu yazılışların dəfələrlə nəşr olunduğu zaman müddəti baxımından yanaşanda Bülbülün irəlicədən nadir görmə duyumuna heyran qalırsan. Axı, o vaxt o özü də cavan idi... Yazılış aparanların arasında A.Zeynallı, Niyazi, S.Rüstəmov, Q.Qarayev, C.Hacıyev, mən vardım, F.Əmirov da sonralar bizə qoşulmuşdu.

Üzeyir Hacıbəyovun “Azərbaycan xalq musiqisinin əsasları” kitabı üçün ETMK-da toplanan materialların olduğunu da dediklərimizə əlavə etsək, aydın olar ki, Azərbaycan musiqi mədəniyyəti öz inkişafının bir çox mərhələlərində nəyə, daha doğrusu, kimə borcludur. Bülbülün tükənməz enerjisi üçün yalnız xalq mahnı və rəqslərinin yazılışı kifayət etmirdi. O, bizim bütün xalq musiqimizin bünövrəsi olan dərin fəlsəfi muğamların nota köçürülməsi ideyası ilə yaşayırdı. Mənimlə bu barədə dəfələrlə danışmışdı. 1935-ci ildə Z.Bağırovla mən tarixdə ilk dəfə olaraq Mansurovun tarda ifa elədiyi üç Azərbaycan muğamını – “Rast”, “Dügah” və “Segah-zabul”u nota köçürəndə onun sevincinin həddi-hüdudu yox idi; həmin il bu muğamlar çap olunandan az sonra nadir tapıntıya çevrildi. Bülbül üçün bu, onun qaynar fəaliyyətində növbəti mərhələ idi. Muğamlar nota köçürüldükdən sonra ürəyində onların simfonik ifadəsini eşitmək arzusu oyandı və Fikrət Əmirov Bülbülün özünün təşəbbüsü, yaxından iştirakı və məsləhəti ilə gözəl “Şur” və “Kürd-ovşarı” simfonik muğamlarını yazmayınca sakitləşmədi.



Bülbül çox mehriban, gülərüz, ünsiyyətsevən insan idi. Hara gedirdisə, ətrafına həmişə aktyorlar, ədəbiyyatçılar, musiqiçilər toplaşırdılar.

Cavan bəstəkarlarla dostluğu bir ayrı cür idi. Həmişə onları yeni əsərlər yazmağa həvəsləndirir, çox vaxt da onların əsərlərinin ilk ifaçısı olurdu.

Əlbəttə, biz bəstəkarların hər birimizin arzusu idi ki, Bülbül bizim mahnılarımızı, romanslarımızı oxusun. Onun da səxavətinin həddi-hüdudu yox idi. Xüsusi minnətdarlıq və iftixar hissi ilə xatırlayıram ki, Bülbül mənim çox mahnılarımın ilk ifaçısı olub, bu ifa da mahnılarımı məşhurlaşdırıb...”.

**SSRİ Xalq artisti, bəstəkar Fikrət Əmirov:**

“Ömrümün çox hissəsini mən əziz Bülbülün evində keçirmişəm. Bu evdə böyüyüb boya-başa çatmışam, bu evdə bəstəkarlıq yaradıcılığımın zirvələrinə yüksəlmişəm. Bülbül mənə ata əvəzi olub, həmişə qayğımı çəkib, müstəqil həyata qədəm qoyduqdan sonra nəzəri üstümdə olub. Bülbülün necə gözəl, xeyirxah insan olduğunu oxucular xatırladacağım məqamdan anlayacaqlar.

Simfonik muğamlar üzərində işləmək üçün Bülbül məni evlərinə dəvət etdi. Biz bütün günü gecəyədək işləyirdik. Müharibədən sonrakı vaxtlardı, güzəran ağır idi. Anamı, bacılarımı da mən saxlayırdım. Evdəki doğma adamlarım üçün narahat olduğumu hiss edən Bülbül, biz işlədiyimiz müddətdə ev qulluqçuları Mariyanı ərzaq dolu səbətlə evimizə göndərirdi ki, mən rahat işləyə bilim.

Simfonik muğamlar yazılıb qurtarandan sonra mən Moskvaya uçmalı idim, dirijor Rojdestvenski məni orada gözləyirdi. O, Bülbülə söz vermişdi ki, “Şur” və “Kürd-ovşarı” muğamlarını Moskva və Leninqradda ifa edəcək. Təyyarəyə minməyə az qalmış gördüm ki, notlar qoyulmuş çamadan yoxdur. Ümidsiz vəziyyətdə səhər tezdən aeroportdan birbaş Bülbülgilə gəldim. Məni görəndə Bülbül heyrətlə, ucadan: “Sən burda nə gəzirsən, axı, indi Moskvada olmalı idin?!” – dedi. Səbəbini biləndə, o dəqiqə beynində götür-qoy etdi və özü üçün aydınlaşdırdı ki, bu kimin işidir. Lakin həmin adamlar mənim səfərimə mane ola bilmədilər.

Bülbül özünü itirmədi, tez bizim not üzü köçürənimizə zəng vurdu, o da dedi ki, buna bir neçə gün vaxt lazım gələcək. Bülbül tapşırdı ki, nə qədər adam lazım olarsa, hamısını yığsın, notun qaralamaları bizdə qalıb, onlara ən yüksək zəhmət haqqı verəcək. Notlar sabah Moskvaya çatdırılmalıdır. G.Rojdestvenski bütün işlərini təxirə salıb, məşq üçün Fikrəti gözləyir.

Altı nəfər notköçürən bütün günü və gecəni işlədi. O biri günü səhər hər iki partitura hazır idi. Bülbül notköçürənlərə böyük məbləğdə pul verdi, işi yaxşı və tez gördükləri üçün onlara təşəkkür etdi, mən də paytaxt Moskvaya uçdum. Bülbülün dediyi kimi oldu: simfonik muğamların bütün dünyada zəfər yürüşü başladı...”.

**Xalq yazıçısı Süleyman Rəhimov:**

“Bizim Bülbül, nəğməkar, sənətkar Bülbül!... Bülbül deyəndə, gözümüz dolanıb axtaranda, Bülbülü kim, ya kimlərlə müqayisə etmək istəyəndə, gözümüzün qabağına Üzeyir bəy gəlir, Səməd Vurğun gəlir... Mənim mülahizəmə görə, Üzeyir bəy musiqi aləmində hansı bir yeri tutursa, Səməd Vurğun müasir şeirdə hansı bir mövqedə dayanırsa, Bülbül də vokal-səhnə sənəti aləmində belə bir yer tutur, belə bir mövqedə dayanır. “Koroğlu”nu Bülbülsüz təsəvvürə gətirmək çətindir, altında Qırat, döşündə sədəfli saz, əli ağır toppuzlu Koroğlu Bülbülün ifasında necə də öz klassik ifadəsini tapırmış. Biz müsamirələrdə, təntənəli musiqi məclislərində Bülbülsüz ötüşə bilmirik. Bülbül olmayan bir musiqi məclisində - bəs Bülbül hanı? – deyə bir-birimizdən soruşuruq və narahat oluruq”.

***

Bülbül, musiqiyə qabil, musiqisevər xalqının gələcəyinin xatirəsidir. Azərbaycan xalqının fəxri, bizim tariximizin iftixarıdır. Ölməzliyə qovuşmuş müğənnidir. Unudulmaz sənətkarı vəfatının 58-ci ildönümündə bu xatirələrdə bir daha yad etmək necə də xoşdur.

**Nigar İSGƏNDƏROVA**

# Yorulmaz tədqiqatçı, səriştəli pedaqoq

Görkəmli kitabxanaşünas alim, yaddaşlarda səriştəli pedaqoq, yorulmaz tədqiqatçı kimi qalan Tacəddin Quliyevin anadan olmasının 90 ili tamam olur.



Tacəddin Fərhad oğlu Quliyev 25 sentyabr 1929-cu ildə Goranboy rayonunun Zeyvə kəndində dünyaya göz açıb. İlk təhsilini kənd orta məktəbində alır. Gəncliyi II Dünya müharibəsi illərinə təsadüf edir. Ağır həyat şəraiti səbəbindən erkən çağlardan əmək fəaliyyətinə başlayır. Əvvəlcə kolxozda, sonra isə Goran dəmir yolunda fəhlə işləyir. 1945-ci ildə Gəncə Pedaqoji Texnikumuna qəbul olunur. Təhsilini başa vurduqdan sonra rayon Mədəni-maarif şöbəsində təlimatçı kimi işə götürülür. 1949-1954-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinin kitabxanaçılıq şöbəsində ali təhsil alır.

Respublika Elmi Texniki Kitabxanasında kitabxanaçı, Sabunçu rayonunun Uşaq Kitabxanasının direktoru işləyir. N.Krupskaya adına Bakı Kitabxanaçılıq Texnikumunda müəllim, 1958-1962-ci illərdə Respublika Kitabxana Kollektorunun direktoru vəzifəsində çalışır.

1962-ci ildə BDU-nun Kitabxanaşünaslıq kafedrası üzrə aspiranturaya daxil olur. Professor A.Xələfovun rəhbərliyi altında “Azərbaycan SSR-də Həmkarlar İttifaqı kitabxanalarının tarixi (1920-1940-cı illər)” mövzusunda namizədlik dissertasiyasını yazaraq müdafiə edir. 1965-ci ildən taleyini BDU-nun Kitabxanaçılıq fakültəsinə bağlayan alim 2005-ci ilə qədər burada çalışır. O cümlədən dekan müavini, Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri vəzifələrində çalışır.

Tacəddin Quliyev tanınmış kitabxanaşünas alim kimi dəfələrlə beynəlxalq elmi tədbirlərə qatılıb. 1990-cı ildə Tacikistanın paytaxtı Düşənbədə “Kitabın Şərq xalqları mədəniyyətinin inkişafında rolu, tarixi və müasir vəziyyəti” mövzusunda keçirilən elmi-nəzəri konfransdakı məruzəsi maraqla qarşılanır.

Alim 50 ilə yaxın bir dövrdə elmi-pedaqoji fəaliyyət göstərib. Bu müddət ərzində 100-dən artıq dərslik, dərs vəsaiti, elmi məqalə və s. ərsəyə gətirir. “Biblioqrafik təsvirin tərtib qaydaları”, “Təbiətşünaslığa dair ədəbiyyatın təsviri, təsnifləşdirilməsi və metodikası” və s. kimi bir çox əsərlərin müəllifidir. 1970-ci ildən kitabxanaşünaslıq və biblioqrafiya ixtisası ilə bağlı nəşr olunan elmi məcmuələrin, elmi topluların və elmi əsərlərin həmmüəllifi, 1997-ci ildən isə “Kitabxanaşünaslıq və biblioqrafiya” elmi-nəzəri və təcrübi jurnalının redaksiya heyətinin üzvü olub. Mədəniyyət Nazirliyinin fəxri fərman və diplomları ilə, “Əmək veteranı”, “Əmək şücaətinə görə” medalları ilə təltif olunub.

Tacəddin Quliyev 2005-ci il oktyabr ayının 10-da vəfat edib.

**S.FƏRƏCOV**

# Ankarada Azərbaycanı tanıdan daha bir məkan

## Mədəniyyət, incəsənət, milli mətbəx bir arada

Memar-rəssam Nurlan Yusifov Türkiyədə Azərbaycanı tanıdan bir sıra əsərlərin müəllifidir. Ankaranın Keçiörən rayonunda salınan Xocalı parkındakı abidə, Qızılcahamam rayonunda Xocalı park-muzeyi sənətkarın əməyinin məhsuludur. Ankarada ən böyük və gözəl parklardan biri olan Heydər Əliyev parkının yenilənməsi də Nurlan Yusifovun memarlıq üslubu əsasında ərsəyə gəlib.

2011-ci ildə parkın yenilənməsi ilə bağlı qərar qəbul edildikdə N.Yusifovun rəhbərliyi altında hazırlanan layihə Azərbaycan və Türkiyə rəsmiləri tərəfindən qəbul edilir. Tanınmış memar bildirir ki, həmin layihə üzrə 2012-ci ildə başlanan işlər iki il davam edib: “10 hektarlıq ərazi Türkiyə dövləti tərəfindən park salınmaq üçün Azərbaycana verilib. 2005-ci ildə parkda böyük öndər Heydər Əliyevin heykəltəraş Natiq Əliyev tərəfindən hazırlanan heykəli qoyulub. Bizə isə parkı yeniləmək həvalə olundu. Onu da qeyd edim ki, bu parkın konsepsiyası Türkiyədəki parklardan fərqlidir. Biz çalışdıq ki, o, Bakı parklarına bənzəsin. Bu məqsədlə şam ağacları da daxil olmaqla Bakıdan müxtəlif ağaclar gətirilib əkildi”.

Hazırda parkda fəaliyyət göstərən amfiteatr və kafe də N.Yusifovun təklif etdiyi layihə üzrə inşa olunub. Memar bu barədə deyir: “Hər parkda bir kafe olmalıdır. Məsələn, bir ailə parka gəlir, bəzən olur ki, uşaq yorulur, su, çay istəyir. Bu parkın ətrafında da satış yerləri yoxdur. Ona görə də parkın içərisində kafeyə ehtiyac var idi. 2014-cü ildə yenilənmə işləri başa çatdı”.




**Azərbaycan Mədəniyyətini Yayma və Yaşatma Dərnəyi**

2018-ci ildə Nurlan Yusifov həm də Azərbaycan Mədəniyyətini Yayma və Yaşatma Dərnəyini qurub. Kafeyə isə Azərbaycanın milli naxış elementi olan butanın (“Buta Bakı”) adı verilib. Hazırda bütün fəaliyyətlər bu dərnək çərçivəsində həyata keçirilir. Beləliklə, Türkiyədə Azərbaycan parkı deyə tanınan bu məkanda həm ölkəmizin mədəniyyəti təbliğ edilir, həm də milli mətbəx nümunələri təqdim olunur. Nəticədə görülən işlər bir-birini tamamlayır.

Həmsöhbətim deyir ki, “Buta Bakı” kafesi sanki mədəniyyət evidir: “Bura gələn insan Bakı haqqında məlumat alır, film seyr edir, musiqi dinləyir. Qonaqlara təqdim etdiyimiz menyu da Azərbaycan mətbəx nümunələrindən ibarətdir. Çay, kəllə qənd, noğul, mürəbbə və s. Azərbaycandan gəlir. Bizim mətbəx zənginliyi, yeməklərimiz sakinlərin də xoşuna gəlir”.

Qeyd edək ki, qısa müddətdir ki, fəaliyyətə başlasa da, bu məkan Ankarada məşhurluq qazana bilib. Nəinki sadə vətəndaşlar, dövlət adamları da buraya gəlir. Ankara Böyükşəhər Bələdiyyəsinin müxtəlif ölkələrdən Türkiyəyə təşrif gətirən qonaqlarını da burada görmək mümkündür. Ən çox sevdikləri yemək isə “Şah plov”dur. Tanınmış elm və siyasət adamı, Türkiyə Cümhuriyyəti Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü İsmayıl Safi “Buta Bakı”ya gələn qonaqlar sırasındadır. Budəfəki gəlişi reportaj hazırladığım günə təsadüf etmişdi. O, fikirlərini belə ifadə etdi: “Bu məkan açılandan bəri artıq 6-cı dəfədir ki, gəlirəm. Çox gözəl qarşılayırlar. Azərbaycanın gözəl yeməklərini dadıram. Dovğa, qutab, kabab, plovu çox bəyənirəm. Qardaş Azərbaycan süfrəsi əsl türk süfrəsidir. Azərbaycan musiqiləri altında onları dadmaq insana zövq verir”.

**Gələcək planlar – musiqi festivalları**

“Buta Bakı”da müxtəlif mədəniyyət tədbirləri keçirilir. Nurlan Yusifov: “Ayda bir dəfə tanıtım axşamları keçiririk. Qışdan bəri isə muğam axşamları düzənləyirik. Özümüzün muğam triomuz var. Bu il milli bayramımız olan Novruzu möhtəşəm şəkildə qeyd etdik. Bu tədbirlərin hər biri anşlaqla keçir”.

Gələcək planlardan da bəhs edən həmsöhbətim bildirir ki, Azərbaycan Mədəniyyətini Yayma və Yaşatma Dərnəyinin xətti ilə musiqi festivalları düzənləməyi də düşünürlər: “İşbirliyi olarsa, daha böyük layihələrə imza ata bilərik. Azərbaycanın Türkiyədəki səfirliyi ilə birlikdə tədbirlər keçirmişik. Bu istiqamətdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə əməkdaşlıq qurmaq fikrindəyik. Azərbaycanın musiqi qruplarını yay festivallarımıza dəvət etməyi düşünürük. İstəyirik ki, bu tədbirlərimiz insanların yaddaşında iz buraxsın və Azərbaycan mədəniyyətini bu məkandan Türkiyəyə yayaq”.

**Mehparə SULTANOVA**
**Bakı**

# Tahir Salahovun çap olunmayan əsərləri

**Görkəmli fırça ustası Tahir Salahovun sənət aləmində 1957-ci ildən başlanan zəfər yürüşü bu günə kimi davam etməkdədir. V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunun tələbəsi kimi diplom işi olaraq yaratdığı "Növbədən qayıdanlar" tablosu ilə SSRİ məkanında böyük şöhrət qazanan gənc rəssam Bakıya qayıdacağı təqdirdə onu bir çox məişət problemlərinin gözlədiyindən xəbərdar idi. Lakin Moskvada qalmaq imkanı olsa da, gənc rəssam Bakıya qayıtmağa qərar verir.**



Hələ tələbə ikən ailə həyatı quran Tahir Salahov doğma şəhərə dönəndə həyat yoldaşı Vansetta Qarayaqubova və qızı Alagöz də onunla idi. Otuzuncu illərdə atası repressiya olunmuş rəssamın bir neçə uşaq böyüdən anasının maddi vəziyyəti də ürəkaçan deyildi. Odur ki, rəssamı yaradıcılıqla yanaşı, müəyyən məsələlərin həlli də ciddi maraqlandırırdı. Həmin anlarda onun kiçik problemlərindən sayılan mənzil məsələsini gənclərə böyük sevgisi olan məşhur mənzərə ustası Səttar Bəhlulzadə "həll edir". Başqa sözlə desək, Səttar yeni inşa olunan "Rəssamlar evi"ndə ona ayrılan ikiotaqlı mənzili gənc həmkarına bağışlayır və deyir: "Mənim Əmircanda ata evim var, çətin olsa da, şəhərə gedib-gələrəm!".

Tahir Salahov uzun illər ərzində bu yaxşılığı unutmur. Hətta Aydın Dadaşovun ssenarisi əsasında çəkilən "Yubiley" televiziya filmində (əsər Səttar Bəhlulzadənin 80 illiyinə həsr olunub) o, olub-keçənləri xatırlayaraq "Mən Səttara hələ də borcluyam!", - deyir. Beləcə, Tahir Salahovun yaradıcılığının problemsiz "Bakı mərhələsi" başlayır...

Qənaətimizcə, çox qısa bir müddətdə onun Bakıda bir-birinin ardınca maraqlı tablolar ("Neftçi", "Səhər eşelonu", "Təmirçilər", "Bəstəkar Qara Qarayevin portreti" və s.) yaratmasının kökündə rəssamın heç vaxt bitməyən məişət qayğılarından qismən azad olması da durur, desək, yanılmarıq. Altmışıncı illər də onun yaradıcılığında dərin iz buraxdı. Dediklərimizi onun süjetli kompozisiya və portretləri də təsdiqləyir. Bununla belə, gənc rəssam yeri gələndə paytaxtdakı müəyyən təşkilatlardan ona edilən müraciətləri də cavabsız qoymayıb. Belə sifarişlərdən biri ona Xalq Təhsili Muzeyindən gəlib. Altmışıncı illərin əvvəllərində muzeyə direktor təyin olunan Tahirə Əhmədzadə (o, 37 il (1961-1998) bu muzeyə rəhbərlik etmişdir) ekspozisiyanı bir qədər yeniləşdirmək üçün oranı yeni eksponatlarla, o cümlədən təsviri sənət əsərlərilə zənginləşdirməyə qərar verir. Arzuladığı portretləri çəkdirmək üçün müəllif axtarışına çıxan direktor elə də vaxt itirmir. Soraqlaşdığı hər kəs ona bu işi adı artıq respublikada kifayət qədər məşhur olan gənc və istedadlı rəssam Tahir Salahova tapşırmağı tövsiyə edir. Rəssamı muzeyə dəvət edən Tahirə xanım görüşləri zamanı məqsədini ona bildirir. Bu etimadı yüksək dəyərləndirən Tahir Salahov bir müddət düşündükdən sonra, vaxtının azlığına baxmayaraq, bu sifarişi icra etməyə razılıq verir. Çünki daima tamaşaçı qələbəliyi duyulan bu muzeydə əsərinin yer alması gənc rəssam kimi onun üçün də xoş idi. Beləliklə, o, təklif olunan sifarişləri – şair Seyid Əzim Şirvani, ictimai-siyasi xadim Səməd ağa Ağamalıoğlu və məktəbli-qəhrəman Tofiq Hüseynovun portretlərini çəkməyə başlayır...



Bu gün Təhsil Nazirliyinin nəzdindəki Xalq Təhsili Muzeyinin daimi ekspozisiyasını bəzəyən həmin portretlər ömrünün 92-ci baharını arxada qoyan böyük sənətkarın yaradıcılığının ilkin mərhələsinin nümunələri kimi dəyərləndirilməkdədir. Bu yazıda həmin sənət əsərləri barəsində söz açmağımız isə onların rəssam haqqında çap olunmuş çoxsaylı nəşrlərin heç birində yer almaması ilə bağlıdır. İndiki halda bunun niyə belə olduğuna əhatəli cavab axtarmaq niyyətindən uzağıq. Amma hər halda onların bu vaxta qədər diqqətdən kənarda qalması və "unudulması" səbəbsiz deyil. Bəlkə də uzaq altmışıncı illərdə çəkilən bu kiçikölçülü əsərləri sonralar daha möhtəşəm tablolar yaratmış sənətkar sadəcə unudub? Bu versiya inandırıcı olmasa da, hər halda mümkün olan məsələdir.



Rəssamın onları bədii xüsusiyyətlərinə görə o qədər də yüksək hesab etməməsi də bu məsələdə rol oynaya bilərdi. Həmin əsərlərdə rəssam imzasının olmaması da bunu söyləməyə əsas verir. Ancaq əlavə edək ki, Tahir Salahovun 1958-1960-cı illərdə yaratdığı və yuxarıda adları qeyd olunan tablolarında da imzası yoxdur.

Hər halda, öncədən deyək ki, muzeyin ekspozisiyasını bəzəyən və geniş ictimaiyyətə az məlum olan bu üç portret dəyərli və məşhur "Tahir Salahov estetikası"nı özündə yaşadan əsərlərdir...

Adı XIX əsr Azərbaycan ədəbiyyatına qızıl hərflərlə yazılmış Seyid Əzim Şirvaninin portretini (1963. Kətan, yağlı boya; 60x80 sm) rəssam əsasını qoyduğu "sərt üslub"un bədii prinsiplərinə uyğun çəkmişdir. Əsərdə şairin obrazını səciyyələndirən ikonoqrafik xüsusiyyətləri qorumaqla, onun nurlu çöhrəsini dəqiqliyi ilə əsərdə əks etdirən Tahir Salahov, son nəticədə, qəzəl janrı sahəsində "Füzulinin yadigarı" kimi el məhəbbəti qazanan Seyid Əzimin gözoxşayan portretini yaratmağa nail olmuşdur.

Şairin papağının qara və əbasının boz rəngi ilə göyümtül fon-yerlik arasında əldə olunan əlaqə harmoniyanın əldə olunmasına xidmət etdiyindən, obraz cəlbedici və yaddaqalandır. Kompozisiyanı təşkil edən ayrıntılarda işıq-kölgədən uğurlu istifadə bütünlükdə portretin bədii tutumunun oynaqlığını şərtləndirmişdir, desək, yanılmarıq...

Azərbaycan tarixində daha çox ictimai-siyasi və dövlət xadimi kimi qalan Səmədağa Ağamalıoğlunun portretinin (1964. Kətan, yağlı boya; 75x75,5 sm) Xalq Təhsili Muzeyinin ekspozisiyasında yer alması həm də onun Qori Seminariyasının məzunu olması ilə bağlı olmuşdur. Xatırladaq ki, S.Ağamalıoğlu (1867-1930) zamanında Azərbaycan SSR MİK sədri, ZSFSR MİK sədri, ilk Xalq torpaq komissarı, "Şərqdə mədəni inqilab"ın banisi, eləcə də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur.

Həm müstəqillik, həm də sovet dönəmində respublikamızın həyatında fəal iştirakı ilə tarixə qovuşan S.Ağamalıoğlunun portretində rəssam, onun şəxsiyyətinə xas olan müsbət keyfiyyətləri qabarıq əks etdirməyə çalışmışdır. Qənaətimizcə, rəssamın qəhrəmanını iri planda təqdim etməsi də buradan qaynaqlanır. Tündsumaxı rəngli xalça fonunda tünd geyimdə görüntüyə gətirilmiş portretin tamaşaçısına yönəli baxışlarında onun varlığında hifz olunan yaşayıb-yaratmaq yanğısı duyulmaqdadır. Çöhrəsinin bütün əzalarına hiss olunacaq bir aydınlıq bəxş edən rəssam bununla da obrazın yaşanan illəri ilə qürur hissi keçirdiyini ifadə etmişdir. "Sərt üslub"un estetikasından qaynaqlanan rəng-cizgi təzadının bu portretin bədii tutumuna müsbət təsir göstərdiyi birmənalıdır...

Üçüncü portretin qəhrəmanını isə müasirlərimizin əksəriyyəti tanımır. Belə ki, ötən əsrin əllinci illərinin sonunda bu məktəblinin etdiyi qəhrəmanlıqdan çoxları xəbərsizdir. Amma onun igidliyi rejissor Eldar Quliyevin 1972-ci ildə çəkdiyi "Var olun, qızlar!" filmində əks olunub.

1958-ci ilin yayında Bakıdakı 134 saylı orta məktəbdə təhsil alan Tofiq Hüseynov Abşeron çimərliklərinin birində dənizdə batan uşaqları xilas edərkən həlak olmuşdur. Üç qızı dənizdən çıxarandan sonra rəfiqələrin dördüncüsünü çıxarmağa çalışarkən yorulmuş yeniyetmə qızla birlikdə boğulur. Yeri gəlmişkən, deyək ki, zamanında onun xatirəsi oxuduğu məktəbə adının verilməsi ilə əbədiləşdirilmişdi, amma burada aparılan əsaslı təmirdən sonra təhsil ocağına qəhrəmanın adını qaytarmağı unudublar...

Tofiq Hüseynovun portreti (1965. Kətan, yağlı boya; 90x70 sm) də rəssamın bədii prinsiplərindən bütün əsərlərində uğurla istifadə etdiyi "sərt üslub"a tapınmaqla işlənmişdir. Üfüqi kompozisiyanın ön planında qəhrəmanı qabarıq təqdim edən Tahir Salahov arxa planda – sahildə onun hərəkətlərini həyəcanla izləyən insanları təsvir etmişdir. Təlatümlü dənizin fonunda görüntüyə gətirilən yeniyetmənin çöhrəsində yaşanan həyəcanı duymaq elə də çətin deyildir. Bu dəfə yığcam rənglərdən istifadə etməklə rəssam onun yaddaqalan obrazını yaratmağa nail olmuşdur...

Haqqında söz açdığımız bu üç əsər Xalq Təhsili Muzeyinin ən qiymətli eksponatlarındandır. Bunu muzeylə tanış olan seyrçilərin fikirləri də təsdiqləyir. Sizlərə də gənc Tahir Salahov fırçasının məhsulları olan həmin portretləri görməyi tövsiyə edirik...

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

## Nəsiminin 650 illiyinə həsr olunmuş intellektual müsabiqə

Sentyabrın 22-də Bakı şəhəri 3 saylı "ASAN xidmət" mərkəzinin təşkilatçılığı ilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında İmadəddin Nəsiminin 650 illiyinə həsr edilmiş intellektual müsabiqə keçirilib.

Müsabiqədə paytaxtda fəaliyyət göstərən "ASAN xidmət" mərkəzlərindən 20 könüllü iştirak edib. 3 saylı Bakı "ASAN xidmət" mərkəzinin könüllülər üzrə məsul şəxsi Ələsgər Əhmədov çıxışında müsabiqənin qaydaları haqqında ətraflı məlumat verib.

Üç mərhələdən ibarət yarışmada iştirakçılar Nəsimi ilə bağlı suallara cavab verib. Müsabiqədə qalib gələn 3 və 5 saylı Bakı "ASAN xidmət" mərkəzlərinin komandaları mükafatlandırılıb.

## Uşaq və gənclər üçün mütaliənin dəstəklənməsi və təbliği

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi işlər üzrə direktor müavini, Əməkdar mədəniyyət işçisi Zahirə Dadaşova və şöbə müdiri İlahə Quliyeva 17-19 sentyabr tarixində Moskvada keçirilən "Uşaq və gənclər üçün mütaliənin dəstəklənməsi və təbliği" adlı beynəlxalq konfransda iştirak edib.



Rusiya Dövlət Uşaq Kitabxanası və Mütaliəsevərlər Birliyinin birgə təşkil etdiyi konfransda "Nağıllarla səyahət" adlı müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimi də keçirilib.

Beynəlxalq müsabiqə MDB ölkələrinin milli mədəni dəyərlərinin təbliği, mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, istedadlı uşaq və yeniyetmələrin axtarılması və dəstəklənməsi, onların özünü ifadə etməyə təşviq edilməsi məqsədi daşıyır.

Qaliblər arasında Bakı şəhəri 132-134 nömrəli Təhsil Kompleksinin şagirdi 11 yaşlı Fatimə Kazımova da var. O, "Ana haqqında nağıl" əsərinə görə birinci yerə layiq görülüb.

## Xatirə təqvimi — 25-29 sentyabr

### Azərbaycan

**25 sentyabr 1890** – Folklorşünas alim, Əməkdar mədəniyyət işçisi Əbülqasım Nurməmməd oğlu Hüseynzadə (1890 - 2.9.1988) anadan olub.

**25 sentyabr 1913** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Nüsrət Möhsün oğlu Fətullayev (1913 – 1.10.1987) Lənkəran rayonunda doğulub. Akademik Dram Teatrının baş rəssamı olub.

**26 sentyabr 1906** – Opera müğənnisi, Əməkdar artist Xanlar Məmməd oğlu Haqverdiyev (1906-1980) Ağdam rayonunun Seyidli kəndində doğulub.

**26 sentyabr 1961** – Görkəmli müğənni, Azərbaycan professional vokal məktəbinin banisi, SSRİ Xalq artisti Bülbül (Murtuza Məşədi Rza oğlu Məmmədov; 22.6.1897 - 1961) vəfat edib. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub, xalq musiqisini öyrənən elmi-tədqiqat kabinetini yaradıb.

**27 sentyabr 1931** – Əməkdar incəsənət xadimi, musiqişünas, professor Bilqeyis Mir Əbdülqəni qızı Qarayeva-Məmmədova (1931 – 3.7.2010) anadan olub.

**28 sentyabr 1978** – Görkəmli yazıçı, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Mir Cəlal Əli oğlu Paşayev (26.4.1908 – 1978) vəfat edib. "Bir gəncin manifesti", "Dirilən adam" və s. romanların, "Azərbaycanda ədəbi məktəblər" monoqrafiyasının müəllifidir.

**29 sentyabr 1833** – Şair, rəssam, xəttat, musiqişünas Mir Möhsün Nəvvab (1833-1918) Şuşada doğulub. "Təzkireyi-Nəvvab" toplusunda Qarabağ şairləri haqqında məlumatlar toplanıb. Şuşada "Məclisi-fəramuşan" ədəbi məclisini təşkil edib.

### Dünya

**25 sentyabr 1897** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1949) Vilyam Folkner (William Cuthbert Faulkner; 1897-1962) anadan olub.

**25 sentyabr 1906** – Rus bəstəkarı, dirijor, pedaqoq Dmitri Dmitriyeviç Şostakoviç (1906 - 9.8.1975) anadan olub.

**26 sentyabr 1888** – Amerika-ingilis şairi və yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1948) laureatı Tomas Eliot (Thomas Stearns Eliot; 1888-1965) anadan olub.

**27 sentyabr 1871** – İtalyan yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1926) laureatı Qrasiya Deledda (1871-1936) anadan olub.

**28 sentyabr 1573** – İtalyan rəssamı Mikelancelo Karavaco (Michelangelo Merisi da Caravaggio; 1573 - 18.7.1610) anadan olub.

**29 sentyabr 1547** – İspan yazıçısı Migel de Servantes (Miguel de Cervantes y Saavedra; 1547 – 23.4.1616) anadan olub.

**29 sentyabr 1904** – Rus yazıçısı Nikolay Alekseyeviç Ostrovski (1904-1936) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 25-29 sentyabr

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 27 sentyabr | XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı<br>P.Axundova – "Məhsəti" (opera, premyera) | 19.00 |
| 28 sentyabr | A.Adan – "Jizel" (balet) | 19.00 |
| 29 sentyabr | Ü.Hacıbəyli - "Leyli və Məcnun" (opera) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 26 sentyabr | V.Şekspir - "12-ci gecə və ya hər nə istəsəniz" | 19.00 |
| 27 sentyabr | K.Abdulla - "Bir, iki - bizimki!" | 19.00 |
| 28 sentyabr | Ç.Aytmatov - "Manqurt" | 19.00 |
| 29 sentyabr | Ə.Əmirli - "Şah Qacar" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 27 sentyabr | İ.Kalman - "Silva" (rus dilində) | 19.00 |
| 28 sentyabr | F.Qarayev, S.Bekket - "Qodonun intizarında" | 19.00 |
| 29 sentyabr | F.Əmirovun musiqiləri əsasında – "999-cu gecə" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 27 sentyabr | Q.Səid – "Əli və Nino" | 19.00 |
| 28 sentyabr | Y.Poddubnaya – "Kraliçanın sonuncu ehtirası" | 12.00 |
| | V.Neverov – "Üç donuz balası, Qırmızıpapaq və boz canavarlar" | 19.00 |
| 29 sentyabr | V.Neverov – "Gəlin, nağıla baxaq" | 12.00 |
| | Anar – "Yuxularımdan çəkil" ("Təhminə və Zaur") | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 27 sentyabr | Türk xalq nağılı - "Keloğlan" | 12.00, 14.00 |
| | Azərbaycan xalq nağılı - "Şəngülüm, Məngülüm" | 16.00 |
| 28 sentyabr | C.Barri - "Piter Pen" | 12.00, 14.00 |
| | Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 16.00 |
| 29 sentyabr | A.Şaiq - "Tıq-tıq və Taq-taqın nağılı" | 12.00, 14.00 |
| | Rus xalq nağılı - "Durna balığı" (rus dilində) | 16.00, 18.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər pr. 36 Kukla teatrının binası)**

| | | |
|---|---|---|
| 28 sentyabr | U.Şekspir - "III Riçard. Lənət" | 19.00 |
| 29 sentyabr | H.İbsen - "Vəsvəsə" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 28 sentyabr | A.Çexov - "İt gəzdirən xanım" | 18.00 |
| 29 sentyabr | S.Hacıyeva - "Dejavü" | 18.00 |

**Şuşa Dövlət Musiqili Dram Teatrı (S.S.Axundov küç. 48)**

| | | |
|---|---|---|
| 28-29 sentyabr | L.Kərimov - "Əlibaba və qırx quldur" (Ərəb nağılı əsasında) | 12.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 26 sentyabr | XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı<br>SSRİ Xalq artisti Soltan Hacıbəyovun 100 və Əməkdar incəsənət xadimi İsmayıl Hacıbəyovun 70 illiyinə həsr olunmuş yubiley gecəsi | 19.00 |
| 27 sentyabr | Çukurova Dövlət Simfonik Orkestri (Türkiyə)<br>Dirijor - Yalçın Adıgözəlov; solist - Murat Salim Tokac (tənbur) | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 25 sentyabr | XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı<br>Violonçel musiqisi axşamı (beynəlxalq müsabiqələr laureatı Veliçka Yoçeva (Bolqarıstan), Murad Hüseynov - piano) | 19.00 |
| 27 sentyabr | Caz axşamı - Mişel Uoker | 19.00 |

**Dövlət Mahnı Teatrı (R.Behbudov küç. 12)**

| | | |
|---|---|---|
| 25 sentyabr | "Könül nəğmələri" (T.Əhmədov adına estrada-simfonik orkestr) | 19.00 |

№68 (1653)
25 sentyabr 2019
www.medeniyyet.az

# Nəsimi festivalı daş və divarları da “danışdıracaq”

Xəbər verdiyimiz kimi, sentyabrın 28-dən oktyabrın 1-dək Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ikinci dəfə Nəsimi – şeir, incəsənət və mənəviyyat Festivalı keçiriləcək. Festivalın zəngin proqramı var. Bakıda və şairin doğulduğu Şamaxıda ümumilikdə 30-dək tədbir keçiriləcək.



Festival çərçivəsində sərgisi açılacaq ənənəvi “Daşın nəğməsi” heykəltəraşlıq simpoziumunun iştirakçıları isə artıq bir neçə gündür ki, “Qala” Arxeoloji-Etnoqrafik Muzey Kompleksində öz əl işlərini hazırlayırlar.

“Daşın nəğməsi” IV Beynəlxalq heykəltəraşlıq simpoziumu İmadəddin Nəsiminin yaradıcılığına həsr olunub. Simpoziumda bu dəfə 8 ölkədən 11 heykəltəraş iştirak edir. Rusiya, Rumıniya, Belarus, Çin, İran, Latviya, Bolqarıstan və Azərbaycandan olan heykəltəraşlar aqlay daşından əl işlərini yonurlar.

İranlı heykəltəraş Səid Əhmədi layihədə ilk dəfə iştirak etdiyini deyib. O da digər həmkarları kimi, Nəsimi yaradıcılığından bəhrələnərək maraqlı nümunə ərsəyə gətirmək niyyətindədir: “Bu əsərləri hazırlamaq müəyyən vaxt və təbii ki, əziyyət tələb edir. Ancaq bütün bu əziyyətlərin nəticəsinin yaxşı olduğunu düşünmək lazımdır. Tam gücümüzlə buna çalışırıq”.

Belaruslu heykəltəraş Aleksey Vrublevski bildirib ki, Nəsimi yaradıcılığı ilə yaxından tanışdır. Şairin qəzəlləri onda xoş təəssürat yaradıb. O, yaradacağı əsərdə daha çox şairin poeziyasından ilhamlandığını söyləyib: “Mən də bu tədbirə birinci dəfədir qatılıram. Bir neçə gündür birlikdə çalışırıq. Nəsimi yaradıcılığı ilə tam vəhdət təşkil edəcək sənət əsərinin meydana gəlməsinə inanıram”.

Azərbaycanlı heykəltəraş Fərman Qasımov simpoziuma fərqli və olduqca maraqlı “Təcəlli” əsəri ilə qatılmaq istəyir: “Simpoziumda müxtəlif ölkələrdən olan sənətkarların bir araya gəlməsi, həm də sənət və təcrübə mübadiləsi deməkdir. Digər müsbət cəhəti də ondadır ki, xarici ölkədən olan sənətkarlar Nəsimi yaradıcılığına dərindən bələd olur. Bir sözlə, sənətin dili ilə şairin zəngin yaradıcılığını insanlara çatdırırlar. Hamıya uğurlar arzulayıram”.

Dünyanın əksər ölkələrində belə simpoziumlarda iştirak etdiyini deyən rusiyalı heykəltəraş Nikolay Karlıxanov hər ölkədə fərqli-fərqli əsərlərlə çıxış etdiyini söyləyib və burada Nəsimi yaradıcılığından bəhrələnərək kamil bir əsər yaradacağına əminliyini ifadə edib.

Qeyd edək ki, “Daşın nəğməsi” adlı heykəltəraşlıq simpoziumu 2016-cı ildən keçirilir. Dördüncü simpoziumun yekun sərgisi sentyabrın 30-da açılacaq.

İkinci Nəsimi – şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində həmçinin “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunda VIII Beynəlxalq “Tullantıdan sənətə” sərgisi açılacaq. Bundan əlavə, Qala qəsəbəsində istifadəsiz sənaye anbarının divarları üzərində işlənmiş rəsm əsərlərindən ibarət “Danışan divarlar” incəsənət layihəsinin ictimai təqdimatı olacaq. Layihə üzrə Azərbaycan, Braziliya, Cənubi Afrika, İspaniya, Niderland və Fransadan olan rəssamların “urban/street art” (şəhər/küçə incəsənəti) janrında yaratdıqları əsərlər, Buzovna və Mərdəkan qəsəbələrindən olan yaradıcı uşaqların rəsmləri əsasında divar pannosu da nümayiş olunacaq.

Ümumilikdə isə festival günlərində bir sıra sərgilər təşkil olunacaq. Sentyabrın 28-də Şirvanşahlar sarayında açılacaq “İrfani sirlər” sərgisində Azərbaycan, Türkiyə, Fransa və Özbəkistandan olan 10 rəssam və heykəltəraşın əsərləri nümayiş etdiriləcək. Azərbaycan Milli Xalça Muzeyinin Nəsimiyə həsr etdiyi xalça eskizi müsabiqəsinin yekun sərgisi də bu günlərdə açılacaq. Heydər Əliyev Mərkəzində Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin əsərləri nümayiş olunacaq.

# Bakı Marionet Teatrının “Leyli və Məcnun”u heyranlıqla izlənilib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xüsusi dəstəyi ilə 2013-cü ildən “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nəzdində fəaliyyət göstərən Bakı Marionet Teatrı Fransada – 20-ci Şarlövil-Mezyer Beynəlxalq Marionet Teatrları Festivalında uğura imza atıb.





Kollektiv ilk dəfə qatıldığı festivalda Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operası əsasında hazırladığı marionet tamaşası ilə seyrçilərin böyük rəğbətini qazanıb.

Teatr Azərbaycanın Fransadakı səfirliyinin və “İçərişəhər” Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsinin dəstəyi ilə festivalda iştirak edib.

Tamaşanın təqdimatında vaxtilə ölkəmizdəki Fransa səfirliyinin mədəniyyət attaşesi olmuş Lük Obri çıxış edərək Bakı Marionet Teatrı, Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operası haqqında məlumat verib. Bildirib ki, Üzeyir Hacıbəyli M.Füzulinin eyniadlı poeması əsasında yazdığı “Leyli və Məcnun” operası ilə müsəlman Şərqində opera janrının əsasını qoyub. O, həmçinin Bakı Marionet Teatrının təsisçisi və rejissoru Tərlan Qorçu haqqında danışıb, “Leyli və Məcnun” əsərindən bəzi parçaları fransızca səsləndirib. Səhnə əsəri ilə bağlı mətni Lük Obri tərəfindən tərcümə edilmiş bukletlər tamaşaçılara paylanıb.

Sonra tamaşa nümayiş olunub. Tamaşaçılar səhnə əsərini böyük maraqla və heyranlıqla izləyib, bir çoxları isə nakam sevgi faciəsinin təcəssümünü emosional şəkildə qarşılayıb. Sonda ayağa qalxaraq əsəri alqışlayan izləyicilər aktyorları səhnəyə çağıraraq təşəkkürlərini bildiriblər. Özlərini təkcə marionet tamaşasında deyil, eyni zamanda operada hiss etdiklərini bildirib, tamaşanın musiqisini çox sevdiklərini diqqətə çatdırıblar. Səhnə dekorasiyasının, marionetlərin möhtəşəm olduğu vurğulanıb.

Qeyd edək ki, Bakı Marionet Teatrının uğuru hələ tamaşa üçün biletlərin satışa çıxarıldığı vaxt bəlli idi. Festivaldan 2 ay əvvəl satışa çıxarılan biletlər 10 gün ərzində satılıb qurtarmışdı. Bir çox tamaşaçılar gündə 2 seans olmaqla iki gün nümayiş etdirilən tamaşanın daha çox göstərilməsinə ehtiyac olduğunu qeyd ediblər.

Səyyar səhnədə istənilən effekti yaratmaq aktyorlardan böyük qabiliyyət və səbir tələb edir. Ancaq istedadlı rejissor, rəssam Tərlan Qorçu və aktyorları məharətlərini səfərbər edərək istədikləri səhnəni yaratmağa və tamaşanı uğurla təqdim etməyə müvəffəq olublar.

Bakı Marionet Teatrı bu festivala qatılmaqla zəngin və rəngarəng Azərbaycan mədəniyyətini, Üzeyir Hacıbəylinin ölməz operasını və möhtəşəm musiqisini bir daha Fransada tanıtmış oldu.

# Qara Qarayevin əsərlərinə həsr edilən film Fransada böyük maraq doğurub

Qara Qarayevin əsərləri artıq çox tanınır. Qara Qarayevin əsərlərinə həsr edilmiş film möhtəşəm idi. Evian şəhərində çəkilmiş filmdə Qara Qarayevin əsərləri beynəlxalq səviyyədə ilk dəfə lentə alınıb. Film Fransa televiziyasında 20 dəfədən çox nümayiş olunub. Bu, onun tamaşaçılar tərəfindən çox sevildiyini göstərir.

Bu fikri nüfuzlu “Reine Elizabeth Concours” müsabiqəsinin qalibi, tanınmış skripkaçı Vadim Repin Lill şəhərində keçiriləcək “Transsiberien” festivalı ilə bağlı mətbuat konfransında söyləyib.

O bildirib ki, filmin çəkilişində böyük bəstəkarın səsləndirilən sonatalarını çox sevib: “Çəkiliş məkanlarında xoş, romantik mühit var idi. Bu, Qara Qarayev əsərlərinin təsiri idi. Azərbaycanlı pianoçu Murad Hüseynovla filmin çəkilişində ifa etdiyimiz sonatalar bizi daha da ilhamlandırırdı”.

Qeyd edək ki, dekabrın 12-dən 14-dək Fransanın Lill şəhərində keçiriləcək 6-cı “Transsibir” incəsənət festivalının (Trans-Siberian Art Festival) açılış mərasimində Qara Qarayevin “Yeddi gözəl” baletindən “Vals” səsləndiriləcək. Festivalın direktorları – tanınmış skripkaçı Vadim Repin və dirijor Jan Klod Kasadesusdur.

Sözügedən film Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin birgə dəstəyi ilə Fransada çəkilib. Qara Qarayevin 100 illiyi münasibətilə çəkilən filmdə Xalq artisti, beynəlxalq müsabiqələr laureatı, pianoçu Murad Hüseynov skripkaçı Vadim Repin ilə birlikdə bəstəkarın sonatasını və 24 prelüdünü səsləndirib. Film Fransanın “Mezzo” klassik musiqi kanalında 20 dəfədən çox yayımlanıb və klassik musiqisevərlər tərəfindən rəğbətlə qarşılanıb.

# Musiqiçilərimizin “Sülh naminə” konserti

21 sentyabr – Beynəlxalq Sülh Günü münasibətilə Fransanın Carriere-sous-Poissy kommunasında meriyanın dəstəyi və azərbaycanlı pianoçu Səidə Zülfüqarovanın təşkilatçılığı ilə “Sülh naminə” adlı konsert keçirilib.



Carrie-sous-Poissy kommunasının meri çıxış edərək konsertin təşkilinə görə kommunanın sakini Səidə Zülfüqarovaya minnətdarlığını bildirib. O, ötən il olduğu kimi, bu il də konsertin maraqlı olacağına əminliyini ifadə edib.

Konsertdə klassik bəstəkarların əsərləri səsləndirilib. Səidə Zülfüqarova və Əməkdar artist, tarzən Sahib Paşazadə muğamlarımızı, Arif Məlikovun və Həsən Rzayevin musiqilərini də ifa ediblər.

Fransız musiqisevərlər milli musiqi aləti tara böyük maraq göstəriblər. Onlar konsertdən sonra tarzənə yaxınlaşaraq alətlə bağlı suallar veriblər.

Konsertdən əvvəl yerli qəzetdə azərbaycanlı pianoçu S.Zülfüqarova haqqında məlumat dərc olunub.

# Ölkəmiz Daşkənddə festivalda təmsil olunub

Daşkənddə keçirilən ənənəvi “Xalqların adət-ənənələri və mətbəxi” adlı festivalda ölkəmizin Özbəkistandakı səfirliyi nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) də iştirak edib.



Azərbaycan guşəsində müxtəlif nəşrlər, ölkəmizin tarixi və mədəniyyəti ilə bağlı əsərlər nümayiş etdirilib. Qarabağın milli kişi və qadın geyimləri iştirakçıların diqqətini cəlb edib. AMM-in naxış və rəsm dərnəyi üzvlərinin əl işləri və suvenirlər də maraqla qarşılanıb.

Azərbaycan guşəsinə baş çəkənlərə ölkəmizlə bağlı kitab və jurnallar hədiyyə olunub, onlar milli təamlarımıza qonaq edilib.

Təşkil edilən konsertdə AMM-in nəzdindəki “Azərbaycan qızları” uşaq rəqs ansamblı da çıxış edib.

# “Emmi” mükafatlarının 71-ci təqdimatı

Sentyabrın 22-də Los-Ancelesdə ABŞ Televiziya Akademiyasının “Emmy 2019” mükafatlarının təqdimat mərasimi keçirilib. Sayca 71-ci “Emmi” mükafatları qaliblərə Maykrosoft Teatrında təqdim olunub.



“Ən yaxşı dramatik teleserial” mükafatını bu il səkkizinci və son mövsümü başa çatmış “Taxt-tac oyunları” alıb. Dramatik seriallarda ən yaxşı aktyorlar isə Cudi Komer və Billi Porter hesab olunublar. Serialdakı performansı ilə Piter Dinkleyc dördüncü dəfə “Ən yaxşı köməkçi aktyor” mükafatını alıb. 32 nominasiya üzrə namizəd olan “Taxt-tac oyunları” ümumilikdə 14 mükafata layiq görülüb.

“Ən yaxşı mini serial” nominasiyasının qalibi isə HBO yayım şirkətinin istehsalı olan “Çernobıl” filmi olub. Bu ekran əsəri mini serialların ən yaxşı rejissoru və ssenarisi üzrə mükafatlara da layiq görülüb. Mini seriallarda ən yaxşı aktyorlar isə Carel Cerom və Mişel Vilyams hesab ediliblər.

Ən yaxşı komediya serialı nominasiyasının qalibi “Yaramaz” filmi olub. Komediya seriallarında ən yaxşı aktyorlar isə Fibi-Voller-Bric və Bill Heyder seçiliblər.

**SƏBİNƏ**

# Dədə Qorqud və Böyük Çölün melodiyaları

Qazaxıstanın Qızıl Orda vilayətində türkdilli ölkələrin ənənəvi folklor və musiqi sənətinin “Qorqud və Böyük Çölün melodiyaları” adlı festival keçirilib.

TÜRKSOY ilə birgə təşkil edilən festivalda Qazaxıstan, Türkiyə, İran, Gürcüstan, Azərbaycan, Özbəkistan və Qırğızıstandan nümayəndələr iştirak edib.

Tədbir çərçivəsində “Dədə Qorqud irsinin türkdilli dünyadakı rolu” adlı beynəlxalq elmi-nəzəri konfrans və türkdilli ölkələrin gənclərinin görüşü keçirilib.

Festival iştirakçıları Karmakşı rayonundakı Qorqud ata xatirə kompleksini ziyarət ediblər. Tədbir çərçivəsində elmi-nəzəri konfrans, sənətkarların sərgisi və tematik görüşlər təşkil edilib.

# TÜRKSOY-un növbəti “Opera günləri”

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un ənənəvi layihələrindən olan “Opera günləri” Şimali Kiprin Girnə şəhərində və İstanbulda keçiriləcək.




TÜRKSOY-un katibliyindən verilən məlumata görə, “Opera günləri”nin açılış mərasimi sentyabrın 25-də Girnə şəhərində olacaq. Tədbir TÜRKSOY, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, Şimali Kipr Türk Cümhuriyyəti Milli Təhsil və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə gerçəkləşəcək.

Sentyabrın 28-dək davam edəcək TÜRKSOY-un 22-ci “Opera günləri”nə 9 ölkədən 10 solist və üç pianoçu qatılıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 4965
**Sifariş:** 3248
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.